Xalqın qəzeti!

# Xalq qəzeti

№ 141 (30545) 9 iyul 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

# Azərbaycanda COP29-a hazırlıq uğurla davam etdirilir

## Təşkilat Komitəsinin beşinci iclası

**İyulun 8-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar Təşkilat Komitəsinin beşinci iclası keçirilib.**



Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev COP29-a hazırlıq prosesinin Prezident İlham Əliyevin daimi nəzarəti altında olduğunu qeyd edib.

Samir Nuriyev bildirib ki, Prezident İlham Əliyev iyulun 4-də keçirilmiş "Şanxay Əməkdaşlıq Təşkilatı plyus" formatında tədbirdə və iyulun 6-da Şuşada təşkil edilmiş Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Azərbaycanın COP29 zamanı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpü yaratmaq və konsensusa nail olmaq üçün səylərini əsirgəməyəcəyini vurğulayıb. Təşkilat Komitəsinin sədri əlavə edib ki, Şuşa Zirvə görüşündə qəbul olunmuş "Qarabağ Bəyannaməsi"ndə qardaş türk dövlətləri COP29-da real nəticələrin əldə edilməsi istiqamətində Azərbaycanın ardıcıl səylərini dəstəkləyiblər.

Samir Nuriyev Prezident İlham Əliyevin Liderlər Sammitinə dəvətinə cavab olaraq tədbirdə iştirak edəcək dövlət və hökumət başçılarının sayının artdığını bildirib. O, Sammitə böyük marağın ölkəmizə hörmətin, Azərbaycanın nəhəng beynəlxalq tədbirləri yüksək səviyyədə təşkil etmək qabiliyyətinə inamın və yaşıl keçidlə bağlı qəti siyasi iradəsinə etimadın göstəricisi olduğunu vurğulayıb.

Prezident Administrasiyasının rəhbəri bildirib ki, Azərbaycan Hökuməti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi arasında imzalanacaq "Ev Sahibi Ölkə" Sazişinin yekun mətni müvafiq dövlət qurumlarının rəyləri nəzərə alınmaqla yaxın zamanlarda hazır olacaq.

(ardı 4-cü səhifədə)

# Qardaşlıq və güc alyansının növbəti üfüqləri

**İyulun 5–6-da Şuşa möhtəşəm beynəlxalq tədbirə evsahibliyi etdi. TDT-nin qeyri-rəsmi Zirvə görüşünün Qarabağ zəfərimizin tacı sayılan məhz bu qala şəhərimizdə keçirilməsi Azərbaycanın dostları və tərəfdaşları ilə yanaşı, həm də bədxahlarına ünvanlanan mesajı sayılmalıdır. Bu mesajla dünya bir daha Prezident İlham Əliyevin "Bizim ailəmiz Türk dünyasıdır" kəlamının növbəti sübutuna şahidlik elədi. TDT-nin Şuşa Sammiti beynəlxalq arenada da böyük maraq doğurub. Regional çərçivədən beynəlxalq institut statusuna keçid dövrünə qədəm qoymuş TDT-nin budəfəki tədbirinin Şuşada keçirilməsi o anlama gəlir ki, dünya, xüsusilə Cənubi Qafqazda maraqlarını güdən "böyük güclər" Türk dövlətlərinin yekdil şəkildə "Qarabağ Azərbaycandır!" siyasi nidalı ismarıcını bir daha eşitmiş oldular.**



### TDT dünyanın güc mərkəzlərindən birinə çevrilir

Bütün Türk dünyasının birlik və həmrəyliyinin rəmzinə çevrilmiş Şuşa bu tarixi missiyaya özünün növbəti töhfəsini verdi. TDT-nin qeyri-rəsmi Zirvə görüşünün məhz Şuşada keçirilməsi Türk dünyasının birliyinin sarsılmazlığının, güc və qardaşlıq alyansının təntənəsi idi. Azərbaycanın son dörd ildə bir-birinin ardınca qazandığı uğurlar paradı, planetin qlobal problemlərinin həllində oynadığı ciddi rolu ölkəmizin geosiyası coğrafiyada nüfuzunu xeyli artırmaqla yanaşı, Türk dünyasının birliyinin təməllərini daha da möhkəmləndirdi.

(ardı 5-ci səhifədə)

# Simonyanın "topu"

## Erməni spiker harada və nə "oynadığını" bilmir

**Ermənistan parlamentinin sədri Alen Simonyan deyib ki, sülh müqaviləsinin imzalanması baxımından İrəvan tərəfindən hansısa ləngimə yoxdur, top Azərbaycan tərəfindədir. Onun sözlərinə görə, ölkəsi prosesin uğurla başa çatacağına ümid bəsləyir. A.Simonyanın belə münasibətinin spekulyativ xarakter daşıdığını söyləmək üçün əsaslar yetərincədir.**



Birincisi, erməni spikerin "top Azərbaycan tərəfindədir" fikrinə diqqət yetirək. Sanki, dörd ildir sülhə gəlməyən Ermənistan deyil, Azərbaycandır. Simonyan unudur ki, 44 günlük müharibədən sonra məhz Azərbaycan Ermənistana sülh əlini uzadıb. Halbuki, qalib ölkə kimi bunu etməyə də bilərdi.

(ardı 4-cü səhifədə)

# Nazim Hacıyev Anastas Mikoyanın məkrli planını necə pozub?

**Hər bir xalqın ən böyük sərvəti onun ziyalılarıdır. Haqlı olaraq hesab olunur ki, ziyalı mənsub olduğu xalqın danışan dili, düşünən beynidir. Azərbaycanın ən çətin dövrlərində belə xalqın, Vətənin taleyini hər şeydən yüksəkdə tutan milli məfkurəli şəxsiyyətləri olub. Onlardan biri də Nikita Xruşşov hakimiyyəti dönəmində Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideoloji məsələlər üzrə katibi işləmiş, cəmi 38 il ömür sürən vətənpərvər ziyalı Nazim Hacıyev idi.**



Bu görkəmli dövlət xadimi o dövrdə xaricdə yaşayan ermənilərin və sovet rəhbərlərindən biri sayılan qatı millətçi Anastas Mikoyanın Qarabağ və Naxçıvanın Sovet Ermənistanına "hədiyyə edilməsi" kimi məkrli planının qarşısının alınması naminə nəinki karyerasını, hətta sağlamlığını və həyatını qurban verib.

(ardı 8-ci səhifədə)

# Avropanın türklük qorxusu

Səhifə ⇨ 10

# Cocuq Mərcanlı seçki marafonuna inamla qoşulur




Səhifə ⇨ 6

# Bakıda Yay Enerji Məktəbinin COP29 dərsi



**ADA Universitetində 18-ci Bakı Yay Enerji Məktəbi fəaliyyətə başlayıb. Yay məktəbi ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutu və ADA Universiteti Fondu tərəfindən, "BP Azərbaycan", Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR), Azərbaycan və Gürcüstan Texniki Universitetinin birgə əməkdaşlığı çərçivəsində təşkil edilir.**

18-ci Bakı Yay Enerji Məktəbinin açılış mərasimində ADA Universitetinin rektoru, Hafiz Paşayev, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, energetika naziri Pərviz Şahbazov, SOCAR-ın prezidenti Rövşən Nəcəf, BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qari Counz və başqaları iştirak ediblər.

(ardı 7-ci səhifədə)

# Fransa daha da "parçalandı"



Səhifə ⇨ 11

# Zəfər yolumuz idmançılarımızı qələbəyə səsləyir



Səhifə ⇨ 11

# Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsinin icrası haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə"yə və 2001-ci il 12 sentyabr tarixli 579 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydaları"na uyğun olaraq Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsinin icrası ilə bağlı hazırlanmış hesabata dair Dövlət Neft Fondunun Müşahidə Şurasının və Azərbaycan Respublikası Hesablama Palatasının rəylərini və Dövlət Neft Fondunun maliyyə fəaliyyətinin beynəlxalq auditor təşkilatı tərəfindən keçirilmiş auditinin nəticələrini nəzərə alaraq **qərara alıram**:

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2023-cü il büdcəsinin icrası, gəlirlər 21 661 900,4 min manat, xərclər 11 832 650,1 min manat və ya Fondun 2023-cü il büdcəsində nəzərdə tutulana nisbətən gəlirlər üzrə 132,6 faiz, xərclər üzrə 99,9 faiz səviyyəsində olmaqla, aşağıdakı kimi təsdiq edilsin:

| Sıra №-si | **Göstəricilər** | **Məbləğ (min manatla)** |
|---|---|---|
| **Gəlirlər, cəmi:** | | **21 661 900,4** |
| | o cümlədən: | |
| 1. | Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) | 14 519 001,1 |
| 2. | Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilərin müqavilə sahəsindən istifadə üçün akr-hesabı ödənişləri | 3 600,6 |
| 3. | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlir | 839,0 |
| 4. | Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlir | 6 337 788,6 |
| 5. | Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilən bonuslar | 800 671,1 |
| **Xərclər, cəmi:** | | **11 832 650,1** |
| | o cümlədən: | |
| 1. | Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinə transfert | 11 737 630,0 |
| 2. | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 27 919,1 |
| 3. | Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 34 343,2 |
| 4. | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 32 757,8 |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

# Avropa Komissiyasının Qeydiyyata Alınmış İxracatçılar Sistemindən Azərbaycan Respublikasının istifadəsi ilə bağlı bəzi məsələlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Avropa Komissiyasının Qeydiyyata Alınmış İxracatçılar Sistemindən (REX) istifadənin təmin edilməsi məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Avropa Komissiyasının Qeydiyyata Alınmış İxracatçılar Sistemindən (REX) istifadə məqsədilə ixracatçıların qeydiyyata alınması barədə təsdiqedici kodun verilməsini, Ümumiləşdirilmiş Preferensiyalar Sistemi (GSP) daxilində birtərəfli qaydada tarif preferensiyalarının (güzəştlərinin) verilməsi ilə bağlı Avropa İttifaqına üzv olan dövlətlərdən, habelə Norveç Krallığından və İsveçrə Konfederasiyasından daxil olan sorğuların cavablandırılmasını və bu çərçivədə digər işlərin həyata keçirilməsini təmin edən vahid səlahiyyətli orqandır.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş ixracatçıların qeydiyyata alınması barədə təsdiqedici kodun verilməsi və daxil olan sorğuların cavablandırılması qaydalarını dörd ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**4.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmanın 1-ci hissəsi ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin vahid səlahiyyətli orqan müəyyən edilməsi barədə Avropa İttifaqına üzv olan dövlətlərə, Norveç Krallığına və İsveçrə Konfederasiyasına müvafiq bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

# "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2430 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində dəyişikliklər edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2024-cü il üçün büdcəsinin gəlirlərini və xərclərini dəqiqləşdirmək məqsədilə **qərara alıram:**

**1.** "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2430 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (I kitab), maddə 1691 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə "12 073 255,5" və "12 900 232,5" rəqəmləri müvafiq olaraq "14 109 215,6" və "12 904 943,4" rəqəmləri ilə əvəz edilsin;

1.2. 2-ci hissə üzrə:

1.2.1. 2.1-ci bəndin "Gəlirlərin məbləği (min manat)" sütununda "8 146 218,8" rəqəmləri "10 197 589,6" rəqəmləri ilə əvəz edilsin;

1.2.2. 2.3-cü bəndin "Gəlirlərin məbləği (min manat)" sütununda "24 223,4" rəqəmləri "170,0" rəqəmləri ilə əvəz edilsin;

1.2.3. 2.5-ci bəndin "Gəlirlərin məbləği (min manat)" sütununda "767 244,4" rəqəmləri "775 887,1" rəqəmləri ilə əvəz edilsin;

1.2.4. "Gəlirlərin məbləği (min manat)" sütununun "Cəmi" abzasında "12 073 255,5" rəqəmləri "14 109 215,6" rəqəmləri ilə əvəz edilsin.

1.3. 3-cü hissə üzrə:

1.3.1. 3.2-ci bəndin "Xərclərin məbləği (min manat)" sütununda "33 526,0" rəqəmləri "38 237,9" rəqəmləri ilə əvəz edilsin;

1.3.2. 3.3-cü bəndin "Xərclərin məbləği (min manat)" sütununda "47 460,0" rəqəmləri "47 459,0" rəqəmləri ilə əvəz edilsin;

1.3.3. "Xərclərin məbləği (min manat)" sütununun "Cəmi" abzasında "12 900 232,5" rəqəmləri "12 904 943,4" rəqəmləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikasının Dövlət Neft Fondu bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

# "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1156-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1156-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 47.2-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 47.2-ci maddəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1156-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 609 (Cild I) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1-ci bənddə "139.4-cü (üçüncü cümlədə)" sözləri "47.2-ci və 139.4-cü maddələrinin üçüncü cümlələrində" sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 3.1-1-ci bənd əlavə edilsin:

"3.1-1. həmin Məcəllənin 47.2-ci maddəsinin üçüncü cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

# P.V.Qlıboçkonun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında təhsil sahəsində əməkdaşlığın və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Pyotr Vitalyeviç Qlıboçko "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

# A.A.Əliyevin Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Adil Abış oğlu Əliyev Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

# Ə.İ.Əzizovun Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Əziz İmran oğlu Əzizov Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

# S.P.Məmmədxanovun Qusar Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Sahir Polad oğlu Məmmədxanov Qusar Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

# Ə.İ.Əzizovun Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Əziz İmran oğlu Əzizov Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

# Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarına diplomatik rütbələrin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının aşağıdakı əməkdaşlarına diplomatik rütbələr verilsin:

**fövqəladə və səlahiyyətli səfir**

Əskərov Əlimirzamin Qəvvam oğlu

**birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi**

Atamoğlanov Ağalar Rahim oğlu
Quliyev Faiq Maqbet oğlu

**ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi**

Hacızadə Ayxan Elxan oğlu
Musayev Azər Samiddin oğlu
Yaqubova Aysel Şakir qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

# F.N.Əzizovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Fikrət Nəhməd oğlu Əzizov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

## “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1171-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1171-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 767 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bənddən “, 18.76-cı” sözləri çıxarılsın;

1.2. 2.2-1-ci bənddə “və 18.76-cı maddələrində” sözləri “maddəsində” sözü ilə əvəz edilsin.

**2.** “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 671 (Cild I) 2.2-ci bəndində “, 53-cü və 57-ci maddələrində” sözləri “maddəsində” sözü ilə əvəz edilsin.

**3.** “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyul tarixli 1387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 721 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddən “1.1.12-ci,” və “14-cü,” sözləri çıxarılsın və həmin bənddə “, 16.2-ci və 17.1-ci” sözləri “və 16.2-ci” sözləri ilə əvəz edilsin;

3.2. 2.4-cü bənddən “1.1.12-ci,” sözləri çıxarılsın və həmin bənddə “və 10.4-cü, 14-cü” sözləri “, 10.4-cü” sözləri ilə əvəz edilsin;

3.3. 2.6-cı bənddə “və 17.1-ci maddələrində” sözləri “maddəsində” sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1171-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

## “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1155-VIQD nömrəli Qanununun tətbiqi və “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1155-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 5.8-ci, 5-1.8-ci maddələrində, 6.1.3-cü maddəsinin ikinci cümləsində, 7.1.1-ci maddəsində, 7-2.1-ci maddəsinin üçüncü, dördüncü (hər üç halda) və beşinci cümlələrində, 7-2.4-cü maddəsinin ikinci cümləsində və 11.3.2-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 11.3.2-1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 5-1.8-ci maddəsində və 7-2.4-cü maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Qanunun 5.8-ci maddəsində, 7-2.1-ci maddəsinin dördüncü (üçüncü halda) və beşinci cümlələrində “orqan (qurum)” dedikdə Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 6.1.3-cü maddəsinin ikinci cümləsində, 7.1.1-ci maddəsində, 7-2.1-ci maddəsinin üçüncü və dördüncü (birinci və ikinci hallarda) cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

1.6. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1155-VIQD nömrəli Qanununun 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.7. həmin Qanunun 2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1155-VIQD nömrəli Qanununun 2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müvafiq informasiya sisteminin yaradılması ilə bağlı altı ay müddətində müvafiq tədbirlər görsün;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**3.** “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə “maddəsində, 5.4.10-cu” sözləri “, 5.4.10-cu, 5.8-ci maddələrində” sözləri ilə əvəz olunsun, həmin bəndə “5-1.9-cu” sözlərindən sonra “maddələrində, 6.1.3-cü maddəsinin ikinci cümləsində, 7.1.1-ci maddəsində, 7-2.1-ci maddəsinin üçüncü, dördüncü (hər üç halda) və beşinci cümlələrində, 7-2.4-cü maddəsinin ikinci cümləsində” sözləri, “8-1.2-ci,” sözlərindən sonra “11.3.2-1-ci,” sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

“2.2-1. həmin Qanunun 11.3.2-1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;”;

3.3. 2.5-ci bənddə “maddəsinin birinci cümləsində, 7-2.1-ci maddəsində, 7-2.4-cü maddəsinin birinci cümləsində” sözləri “, 7-2.1-ci və 7-2.4-cü maddələrinin birinci cümlələrində” sözləri ilə əvəz edilsin və həmin bənddən “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında” sözləri çıxarılsın;

3.4. 2.5-1-ci bənddə “5-1.8-ci və 5-1.9-cu maddələrində “orqan” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında” sözləri “5.8-ci, 5-1.9-cu maddələrində, 7-2.1-ci maddəsinin dördüncü (üçüncü halda) və beşinci cümlələrində, 13.3-1-ci maddəsində “orqan (qurum)” dedikdə” sözləri ilə əvəz edilsin;

3.5. 2.6-cı və 2.14-1.1-ci bəndlərdən “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında” sözləri çıxarılsın;

3.6. 2.8-ci və 2.9-1-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

“2.8. həmin Qanunun 6.1.3-cü maddəsinin ikinci cümləsində, 7.1.1-ci maddəsində, 7-2.1-ci maddəsinin üçüncü və dördüncü (birinci və ikinci hallarda) cümlələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;”;

“2.9-1. həmin Qanunun 5-1.8-ci maddəsində və 7-2.4-cü maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

## “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təbii qaz sahəsində Əməkdaşlıq Sazişi”nin təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2024-cü il mayın 14-də İstanbul şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təbii qaz sahəsində Əməkdaşlıq Sazişi” təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Sazişi qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əməkdaşlıq Sazişinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

## “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1184-VIQD nömrəli Qanununun tətbiqi və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1184-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununun 1.1.27-ci, 26.3-cü, 26.5-ci, 26.6-cı (hər üç halda), 26.7-ci (hər iki halda), 26.8-ci maddələrində, 26.12-ci maddəsinin birinci cümləsində və 26.13-cü (hər iki halda) maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 26.3-cü və 26.7-ci (birinci halda) maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 1.1.27-ci, 26.5-ci, 26.6-cı (birinci və üçüncü hallarda), 26.7-ci (ikinci halda), 26.8-ci maddələrində, 26.12-ci maddəsinin birinci cümləsində və 26.13-cü (hər iki halda) maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Qanunun 26.6-cı maddəsində (ikinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

2.1. “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununun 26.3-cü maddəsinə uyğun olaraq, kvotadan əlavə iş yerlərinin yaradılması qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. həmin Qanunun 26.7-ci maddəsinə uyğun olaraq, məqsədli proqramların həyata keçirilməsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1184-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi altı ay müddətində:

3.1. “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununun 26.6-cı maddəsinə uyğun olaraq, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin kateqoriyaları üzrə faiz dərəcələrini təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. həmin Qanunun 26.13-cü maddəsinə uyğun olaraq, məqsədli proqramların həyata keçirilməsi çərçivəsində işəgötürən tərəfindən yaradılan hər iş yerinə görə iqtisadi fəaliyyət növlərinin xüsusiyyətləri nəzərə alınmaqla ayrılacaq vəsaitin məbləğini təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**4.** “Məşğulluq haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1683 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə “1.1.23-cü,” sözlərindən sonra “1.1.27-ci,” sözləri, “26.2-ci,” sözlərindən sonra “26.3-cü, 26.5-ci, 26.6-cı (hər üç halda), 26.7-ci (hər iki halda), 26.8-ci maddələrində, 26.12-ci maddəsinin birinci cümləsində, 26.13-cü (hər iki halda),” sözləri əlavə edilsin;

4.2. 2.4-cü bəndə “26.2-ci,” sözlərindən sonra “26.3-cü, 26.7-ci (birinci halda),” sözləri əlavə edilsin;

4.3. 2.5-ci bəndə “1.1.23-cü,” sözlərindən sonra “1.1.27-ci,” sözləri, “26.1-ci,” sözlərindən sonra “26.5-ci, 26.6-cı (birinci və üçüncü hallarda), 26.7-ci (ikinci halda), 26.8-ci maddələrində, 26.12-ci maddəsinin birinci cümləsində, 26.13-cü (hər iki halda),” sözləri əlavə edilsin;

4.4. 2.17-ci bənddə “və 25.2-ci” sözləri “, 25.2-ci və 26.6-cı (ikinci halda)” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2024-cü il**

## Baş prokuror Vyanada



**İyulun 8-də Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Avstriya Respublikasına işgüzar səfərdədir.**

Avstriyanın baş prokuroru Margit Vaxberger nümayəndə heyətini salamlayaraq, ölkələrimiz arasında mövcud münasibətlərin səviyyəsindən məmnunluğunu vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən Kamran Əliyev BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un, cari ilin 29 sentyabr – 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyini bildirərək həmkarına dəvətini qəbul edərək tədbirdə nümayəndə heyəti ilə iştirakına görə təşəkkürünü ifadə edib.

Görüşdə cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım, ekstradisiya, terrorçuluqla mübarizə, cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması, korrupsiya cinayətləri və qarşılıqlı maraq doğuran digər mövzular ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

***XQ***

## Ceyhun Bayramovun mediaya açıqlaması

**Azərbaycan sülh gündəliyinə sadiqdir. Biz bu istiqamətdə işlərimizi səylə davam etdiririk. Sülh müqaviləsinin imzalanması üçün əsas şərt, təbii ki, Ermənistan konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarına münasibətdə dəyişikliklərlə bağlıdır.**

Bu fikirləri jurnalistlərə müsahibəsində xarici işlər naziri Ceyhun Bayramov səsləndirib.

Ceyhun Bayramov bildirib ki, Xarici İşlər Nazirliyi bundan sonra da dövlətimizin siyasi kursu əsasında xalqın milli maraqlarına uyğun düzgün siyasətin aparılması, Azərbaycanın mövqeyinin ortaya qoyulması istiqamətində səylərini davam etdirəcək.

*



**Azərbaycanı İranla dini və tarixi köklər birləşdirir. Qonşu ölkədə prezident seçkiləri keçirildi və İran xalqı yeni rəhbərini seçdi. Ölkəmiz bundan sonra da İranla birgə layihələrin həyata keçirilməsində maraqlıdır.**

Bu fikirləri də jurnalistlərə müsahibəsində Ceyhun Bayramov söyləyib.

Nazir vurğulayıb ki, ölkələrimiz arasında birgə layihələr, birgə baxış bundan sonra da davam etdiriləcək və əlaqələrimiz daha da genişləndiriləcək.

***XQ***

## Qazaxıstanda TDT ölkələrinin hərbi təlimləri

**Qazaxıstanın Məngistay vilayətində keçirilən “Birlik-2024” adı ilə hərbi təlimlərində Azərbaycan, Qırğızıstan, Özbəkistan və Tacikistan hərbçiləri də iştirak edirlər.**

Təlimlərə 4 minə yaxın əsgər, o cümlədən 700-dək hərbi texnika cəlb olunub.

“Münaqişənin lokallaşdırılması” əməliyyatında quru və hava kəşfiyyatı hərbçiləri, xüsusi dəniz təyinatlıları, artilleriya ekipajları, hücum və tank bölmələri, aviasiya və gəmilər iştirak edəcək.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

***Daşkənd***

# Təşkilat Komitəsinin beşinci iclası

(əvvəli 1-ci səhifədə)

Təşkilat Komitəsinin sədri 2024-cü il iyunun 3-13-də keçirilmiş Bonn iqlim konfransından sonra Azərbaycanın COP29 sədrliyinin aktiv mərhələsinə qədəm qoyduğunu qeyd edib.

Azərbaycanın COP29 prioritetləri barədə danışan Samir Nuriyev müxtəlif dövlət qurumlarının təklifləri əsasında, eləcə də BMT və digər beynəlxalq qurumlarla intensiv müzakirələr nəticəsində 14 təşəbbüsdən ibarət ilkin təkliflər siyahısının hazırlandığını bildirib.

Samir Nuriyev qeyd edib ki, artıq BMT ilə razılaşdırmaqla COP29-un tematik günlərinin bölgüsü aparılıb.

Azərbaycanın iqlim dəyişmələrinə qarşı mübarizədə dövlətlərlə yanaşı, qeyri-hökumət təşkilatları, beyin mərkəzləri ilə də əməkdaşlığa açıq olmasına toxunan Samir Nuriyev vurğulayıb ki, bir sıra nüfuzlu əcnəbi şəxslərdən ibarət COP29 Beynəlxalq Məşvərət Komitəsinin yaradılması istiqamətində işlər yekunlaşmaqdadır.

Sonra ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev çıxış edərək, COP29-la bağlı ümumi gedişat, Bonn iqlim konfransının nəticələri, COP29 komandasının xarici səfərləri barədə məlumat verib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov COP29-a hazırlıq çərçivəsində təşkilati-logistika sahəsində aparılan fəaliyyət, o cümlədən Bakı Olimpiya Stadionunda infrastrukturun qurulması üzrə başlanmış işlər barədə məlumat verib.




Xarici işlər naziri Ceyhun Bayramov ümumi substantiv məsələlər, Bonn iqlim konfransında yeni iqlim maliyyəsi hədəfi üzrə aparılmış danışıqlar, COP29 Sədrliyinin Fəaliyyət Gündəliyi, təşəbbüslər barədə çıxış edib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev kommunikasiya məsələləri, o cümlədən xarici media ilə aparılan işlər barədə danışıb.

İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva COP29 üzrə həyata keçirilmiş fəaliyyət və nəzərdə tutulan tədbirlər barədə məlumat verib.

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov yanğın və texniki təhlükəsizlik sahəsində görülən tədbirlər barədə çıxış edib.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov paytaxtın COP29-a hazırlığı barədə danışıb.

Qida Təhlükəsizliyi Agentliyi sədrinin müavini Zəkiyyə Mustafayeva ictimai iaşə xidmətlərinin təşkili və bu istiqamətdə həyata keçirilən nəzarət tədbirləri barədə çıxış edib.

"DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Nigar Məmmədova DOST İnklüziv xətti ilə COP29-la bağlı görülən işlər barədə danışıb.

İclasın sonunda COP29 Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

# Simonyanın "topu"

(əvvəli 1-ci səhifədə)

İkincisi, Bakının İrəvana sülh əlini uzatmasına baxmayaraq, ikinci dörd il müddətində ən müxtəlif variantlara əl atdı ki, sülhdən uzaqlaşsın, yeni reallıqlar formalaşdırsın. Bu baxımdan Qarabağda separatçı rejimi saxlamaqdan tutmuş, bölgəyə silah-sursat, mina daşınmasınadək bir çox məqamların üzərində dayanmaq mümkündür. Hələ Qarabağ ermənilərinə beynəlxalq status məsələsini də sülh gündəminə daxil etmək kimi separatçı niyyət də var idi.

Üçüncüsü, Ermənistan ötən müddətdə beynəlxalq müstəvidə Azərbaycana qarşı çeşidli anti-təbliğat üsullarına baş vurdu ki, sülhün gerçək trayektoriyasına zərər gəlsin. Rəsmi İrəvan xaricdəki ermənipərəst dairələrlə birləşərək, ölkəmiz əleyhinə müxtəlif qərəzli qətnamələrin çıxarılmasına nail oldu. Bütün bunlar da sülh gündəminə ciddi zərbə idi.

Dördüncüsü, Azərbaycanın istəyi göz önündədir. Ölkəmiz 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərinə əməl olunmasını tələb edir. Yəni, Naxçıvana maneəsiz yolu. Rəsmi Bakının mövqeyi budur ki, həmin dəhliz "Azərbaycandan Azərbaycana yol" məntiqinə söykənsin, orada hansısa sərhəd və gömrük nəzarəti olmasın. Bəs İrəvan bununla razıdırmı? Xeyr! Nəticədə ölkəmiz Naxçıvana yolun İrandan keçəcəyini bildirir və mövcud istiqamətdə Tehranla razılaşma əldə olunub.

Ən pisi də budur ki, hazırda Bakının Naxçıvana yol məsələsində irəli sürdüyü şərtin yerinə yetirilməyəcəyi təqdirdə, İrəvanın sülhə gəlməyəcəyinə dair ritorika hakimdir. Bunu Azərbaycanla-Ermənistan arasında vasitəçiliyə can atan ABŞ rəsmilərinin fikirlərindən duymaq mümkündür. Əlbəttə, bununla bağlı konkret ismarıc indi səslənməsə də, vaxtilə məsələ barədə söz açılıb. Birləşmiş Ştatların Dövlət Departamenti rəhbərinin köməkçisi Ceyms O'Brayn ötən ilin sonlarına doğru, kifayət qədər, açıq tekstlə bildirmişdi ki, Vaşinqton Naxçıvana yolun İrandan keçməsinə qarşıdır. Hərçənd, indi ABŞ da birbaşa bu məntiqin üzərində dayanmır. Sadəcə, O'Brayn Naxçıvana yolun Orta dəhliz mahiyyətini qabardır və onun sözlərindən çıxan qənaət budur ki, yalnız Bakı-İrəvan sülhü nəticəsində sözügedən dəhliz işə düşə bilər. Belə çıxır ki, sülh olmasa, Naxçıvana yol da olmayacaq. Necə olmayacaq, məsələ açıq qalır.

Ancaq bir şey dəqiqdir ki, əgər Ermənistan Naxçıvana yol məsələsində Azərbaycanın irəli sürdüyü şərti yerinə yetirməsə, həmişə olduğu kimi, yenə də təcrid durumunda, dalan vəziyyətində qalacaq. Bu, İrəvanın regional iqtisadi layihələrdən kənar düşməsi olacaq. Məsələyə mövcud prizmadan yanaşsaq, əslində, top Simonyanın bildirdiyi ki, Azərbaycanın deyil, məhz Ermənistanın tərəfindədir. Düşünmək növbəsi rəsmi İrəvanın təmsilçilərinindir.

Bəli, Simonyan reallıqları yaxşı bilir. Ancaq bildiyi halda da yenə siyasi spekulyasiyaya əl atır, erməniliyindən qalmır. Nəzərə alaq ki, Azərbaycanın Ermənistanla sülh məsələsində irəli sürdüyü daha bir şərt var. Söhbət Ermənistan konstitusiyasının dəyişdirilməsindən gedir. O konstitusiya ki, əsasını Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarının yer aldığı İstiqlaliyyət bəyannaməsindən götürür.

Yada salaq ki, Ermənistan baş naziri Nikol Paşinyan da bu günlərdə ölkənin əsas qanununun dəyişdirilməsindən söz açmışdı. Onun sözlərindən belə nəticə hasil olmuşdu ki, hazırkı konstitusiya erməni xalqının maraqlarına deyil, vaxtilə mövcud olmuş hakim elitanın mənafelərinə xidmət edən sənəddir. Belə olan halda da Simonyan topu Azərbaycanın tərəfinə "ötürməyə" tələsir, yumşaq desək, düz eləmir.

Üstəlik, sülh gündəminə zidd daha bir tendensiya da var. Ermənistan silahlanma yolu tutub. Daha dəqiq desək, Fransa Ermənistanı silahlandırmaqla məşğuldur. Belə görünür ki, hazırda rəsmi Paris başda olmaqla, Cənubi Qafqazda sülhə qarşı çıxan qüvvələr aktivləşiblər və heç bir təminat yoxdur ki, Paşinyan hakimiyyəti özündə iradə nümayiş etdirib həmin qüvvələrin planlarına qarşı çıxmağı bacaracaq. Ermənistanın illüziya bataqlığında qovrulub ölkəmizə cəbhə açmayacağına dair təminat da yoxdur. Bakının tələbi isə bu təminatı formalaşdırmaqdır.

Onu da deyək ki, Ermənistan əvvəllər olduğu kimi, yenə Azərbaycanla sülhdə maraqlı deyil. A.Saimonyanın açıqlaması, böyük ölçüdə bundan xəbər verir. Sadəcə, erməni spiker "topu" Azərbaycan tərəfində görməklə ölkəsini məsuliyyətdən uzaq tutmaq fikrindədir. Guya ki, sülhə razı olan tərəf İrəvan, sülhə gəlmək istəməyən isə Bakıdır. Belə yanaşma səmimiyyətdən tam uzaqdır. Ona görə ki, sülh yolunda yuxarıda haqqında söz açdığımız və həlli vacib olan məsələlər var.

Sonda bir məqamın da üzərində dayanaq. Ermənistan rəhbərliyinin reallığı dərk etməməsi, müxtəlif spekulyasiyalara baş vurması, guya ki, "diplomatik" davranması həmişə fəsadlara yol açıb. İrəvan Bakı ilə sülhə gəlmədiyi hər gün itirməkdədir. Ona görə də Simonyanın hazırda "topla" harada oynadığının fərqində olmadığını söyləyə bilərik. Yaxşı olar ki, nəinki erməni spiker, eləcə də bu şəxsin tərkibində yer aldığı hakim komandanın hər bir üzvü yaxşı düşünsün. Sülh pəncərəsi həmişə açıq qalmaya da bilər.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Ekoloji qanunvericilik və ətraf mühitin qorunması

**Ümummilli lider Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin 55 illiyi münasibətilə və ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və DİN-in Daxili Qoşunlarının Hərbi İnstitutunun yüksək rütbəli qulluqçuları birgə tədbir keçiriblər.**





Tədbirdə general-mayor Elçin Məmmədov, Hərbi Prokurorluğun kadrlar şöbəsinin rəisi Elmir Süleymanlı, mətbuat xidmətinin rəhbəri Firad Əliyev və başqaları çıxış edərək Ulu öndərin xalqımız və dövlətimiz qarşısındakı müstəsna xidmətlərindən danışıblar. Çıxışçılar, eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddətdə ölkəmizdə həyata keçirilən köklü islahatlardan, qazanılan uğurlardan bəhs ediblər.

Daha sonra ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, hüquq və vəzifələrdən söz açılıb. Sonda ağacəkmə aksiyası keçirilib.

# Qusar Rayon İcra Hakimiyyətinin başçısı kollektivə təqdim edilib

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Qusar Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Sahir Polad oğlu Məmmədxanov iyulun 8-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.**



Təqdimatda Zeynal Nağdəliyev çıxış edərək dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

S.Məmmədxanov ona göstərilən etimada görə minnətdarlıq edib.

# Dəmiryolçularımız BAM-ın yubiley şənliyində



**"Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbərliyi iyulun 8-də Rusiya Federasiyasının Tında şəhərində Baykal-Amur Magistralı (BAM) layihəsinin 50 illiyi münasibətilə təşkil olunmuş təntənəli mərasimdə iştirak edib.**

ADY-dən bildirilib ki, tədbirdə Rusiya Federasiyası Prezidentinin köməkçisi İqor Levitin, "Rusiya Dəmir Yolları" ASC-nin baş direktoru Oleq Belozyorov, "BAM Birliyi" ictimai təşkilatının prezidenti Yefim Basin və digər MDB ölkələrinin dəmir yolları administrasiyalarının rəhbərləri də iştirak ediblər.

Tədbirdə çıxış edən ADY sədri Rövşən Rüstəmov BAM veteranlarını layihənin həyata vəsiqə qazanmasının 50 illiyi münasibətilə təbrik edib və ulu öndər Heydər Əliyevin BAM-ın inşasına verdiyi əvəzsiz töhfələri vurğulayıb. O bildirib ki, Heydər Əliyev layihənin ən çətin mərhələlərinin inşasına rəhbərlik edib və layihənin gedişatında dönüş nöqtəsi yaradıb: "Nəqliyyat kuratoru olaraq Ulu öndərin rəhbərliyi ilə BAM-ın inşası qısa müddətdə sürətləndirildi, resurslar səmərəli şəkildə təchiz olundu və infrastrukturun inkişafına xüsusi diqqət yetirildi. BAM-ın inşasında Heydər Əliyevin rolu əvəzsizdir və hazırda Anqoya stansiyasının Ulu öndərin adını daşıması onun misilsiz xidmətlərinə göstərilən diqqətin təzahürüdür".

Rövşən Rüstəmov azərbaycanlı mütəxəssislərin Ulkan və Anqoya stansiyalarının tikintisində önəmli rolunu qeyd edib: "Azərbaycanlı mühəndis və işçilər yüksək peşəkarlıq və fədakarlıq göstərərək bu stansiyaların inşasında mühüm rol oynayıblar. Onların əməyi sayəsində bu strateji obyektlərin tikintisi vaxtında və keyfiyyətlə başa çatdırılıb".

Tədbir çərçivəsində çıxış edən digər qonaqlar da ümummilli lider Heydər Əliyevin layihənin inşasında xüsusi xidmətlərini vurğulayıb, Ulu öndərin xatirəsini minnətdarlıqla anıblar.

Daha sonra tədbir iştirakçıları BAM muzeyini, "BAM-ın inşaatçıları" abidəsini, Tında şəhərində yerli mütəxəssislərin hazırlanması üçün nəzərdə tutulan İxtisasartırma Tədris Mərkəzini ziyarət edib və yeni texnologiyalarla tanış olublar.

Qeyd edək ki, BAM keçmiş SSRİ-nin ən böyük infrastruktur layihələrindən biri olmaqla, Baykal gölü ilə Amur çayı arasında dəmir yolu nəqliyyatını təmin edən mühüm strateji layihədir. Bu magistral şimal bölgəsinin inkişafını sürətləndirmək, iqtisadi əlaqələri gücləndirmək və yeni sənaye mərkəzlərinin yaradılmasını təmin etmək məqsədilə inşa olunub. BAM-ın ümumi uzunluğu təxminən 4324 kilometrdir və bu magistral Baykal gölündən başlayaraq Amur çayının sahillərinə qədər uzanır. Layihə çərçivəsində 200 stansiya və çoxsaylı körpülər, tunellər tikilib. Layihənin inşasında keçmiş sovet respublikalarından on minlərlə işçi, o cümlədən, yüzlərlə azərbaycanlı mütəxəssis iştirak edib.

*XQ*

# Bakıda "ŞƏT Nümayiş Zonası" konfransı

**Bakıda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO, Çin-Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Yerli İqtisadi və Ticarət Əməkdaşlığı Nümayiş Zonasının (SCODA) İnzibati Komitəsinin birgə təşkilatçılığı, Çinin Azərbaycandakı səfirliyi, Azərbaycanın Çindəki səfirliyində ticarət nümayəndəsi Aparatının dəstəyi ilə "ŞƏT Nümayiş Zonası - Azərbaycanda logistika və ticarətin təşviqi" konfransı keçirilib.**

Tədbirdə hər iki ölkədən rəsmilərlə yanaşı, ticarət, logistika və turizm sektorlarından şirkətlərin nümayəndələri də iştirak ediblər.

Konfransda çıxış edən Çinin Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Dinq Tao bildirib ki, Azərbaycan-Çin ikitərəfli münasibətləri əhəmiyyətli dərəcədə möhkəmlənib, iqtisadi tərəfdaşlıq isə müxtəlif sahələrdə qarşılıqlı maraqlar nəticəsində genişlənib.

AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev ölkələrimiz arasında iqtisadi-ticarət əməkdaşlığı haqqında danışıb. Bildirilib ki, Azərbaycanın Çində 6 ticarət evi fəaliyyət göstərir, ölkələrimiz qlobal nəqliyyat infrastrukturu təşəbbüslərində birgə iştirak edir, sənaye və avtomobil istehsalı sahələrində isə ortaq layihələr reallaşdırırlar.

Tədbirdə Çin Kommunist Partiyasının İşçi Komitəsi katibinin müavini və SCODA İnzibati Komitəsinin icraçı direktorunun müavini Li Qanq SCODA-nın Azərbaycan ilə beynəlxalq ticarət sərgilərində birgə fəaliyyətini vurğulayaraq, qurumun ölkəmizin bir sıra təşkilatları ilə mühüm razılaşmalar imzaladığını diqqətə çatdırıb.

Konfransda, həmçinin Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, o cümlədən Dövlət Turizm Agentliyi, Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası və Çindao şəhər bələdiyyəsinin nümayəndələri ölkələrimizin biznes, ticarət və tranzit imkanları, eləcə də Azərbaycan-Çin əlaqələrinin müxtəlif platformalar və formatlarda inkişafı haqqında çıxışlar edib, təqdimatlar keçiriblər.

Konfrans çərçivəsində hər iki ölkənin müvafiq qurumları arasında nəqliyyat-logistika, ticarət və turizm sahələrində əməkdaşlığı nəzərdə tutan sənədlər imzalanıb.

Tədbir B2B formatında görüşlərlə davam edib.

*XQ*

# Qardaşlıq və güc alyansının növbəti üfüqləri

## Türk Dövlətləri Təşkilatının Şuşa Sammiti Qarabağ Bəyannaməsi ilə tarixə düşdü



(əvvəli 1-ci səhifədə)

TDT-nin ildə bir dəfə qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi təşəbbüsünü Prezident İlham Əliyev irəli sürüb. Bunu Şuşada çıxışında qonaqların nəzərinə çatdıran dövlətimizin başçısı Türk ölkələri ilə əlaqələrin genişləndirilməsi, Türk dünyasının və TDT-nin gücləndirilməsinin Azərbaycanın xarici siyasətinin prioritet istiqaməti olduğunu xüsusi olaraq vurğuladı. Çıxışında "Azərbaycan həmişə Türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərib. Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərindən birinə çevrilməlidir. Türk dünyası böyük coğrafi məkanı əhatə edir, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərib", – deyən İlham Əliyev zəngin təbii resurslara, onların nəqli üçün müasir infrastruktura, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizlərinə malik qardaş ölkələrin, zəngin və qədim tarixi, mədəniyyəti olan xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərdən gəlmələrinin bizi sıx birləşdirdiyini xatırladaraq yeni mesajını verdi: "İyirmi birinci əsr Türk dünyasının inkişafı əsri olmalıdır".

### Qarabağ Bəyannaməsinin hədəfləri

TDT-nin Şuşa Zirvə görüşünün ən önəmli yekunu kimi iştirakçıların imzaladığı Qarabağ Bəyannaməsidir. TDT-yə üzv ölkələrin liderləri regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik və tərəqqi ideyalarına daim sadiq olan türk xalqlarının ortaq etnik köklərə, adət-ənənə və dəyərlərə söykənən bir ailə olduğuna, eləcə də bəşər tarixində Türk xalqlarının əldə etdikləri siyasi, iqtisadi və mədəni nailiyyətlərinə əsaslanaraq, Qarabağ Bəyannaməsini imzaladılar. Yeni sənədin preambulasında Türk xalqlarının müxtəlif sivilizasiyaların inkişafında tarix boyu oynadığı rolun əhəmiyyəti və dəyəri qeyd olunub.

Həm regional əməkdaşlığın inkişafı, həm də Avropaya, dünyaya inteqrasiya baxımından böyük əhəmiyyətə malik Qarabağ Bəyannaməsində TDT üzvləri arasında siyasi, iqtisadi, nəqliyyat, müdafiə, humanitar, təhsil və mədəni sahələrdə əməkdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanır. Əslində, bu sənəd Türk dövlətləri arasında strateji tərəfdaşlığın yeni üfiqlərini hədəfləyir. Turan arealında nəqliyyat infrastrukturuna ayrıca önəmin verildiyi sənəd özündə Baku–Tbilisi–Qars dəmir yolu xətti və Çin–Qırğızıstan–Özbəkistan perspektivli dəmir yolu layihələrini, böyük gəlirli transmilli dəhlizlər yaratmağın strateji əhəmiyyətini əks etdirir.

Qarabağ Bəyannaməsi, o cümlədən, dünyada iqlim dəyişmələri ilə bağlı tədbirləri, rəqəmsal texnologiya sahəsində əməkdaşlığı, "Rəqəmsal İpək Yolu" layihəsi kimi təşəbbüsü və rəqəmsal hökumət infrastrukturunun inkişafını, bu sahədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsini əhatə edir. Bundan son məqsəd isə Avropa və Asiya arasında magistral telekommunikasiya marşrutunu yaratmaqdır. Yəni, bu bəyannamə ümumi tezislərin yer aldığı deklarativ xarakterli deyil, real və konkret nəticələrə əsaslanan, praktiki əhəmiyyət daşıyan bir sənəddir.

Birmənalı olaraq qeyd edə bilərik ki, Qarabağ Bəyannaməsi Türk dövlətləri arasında əməkdaşlığı gücləndirməyə müsbət və çoxtərəfli yanaşma təqdim edir. Bu ideya etnik-mədəni qardaşlığın simvolu olmaqla yanaşı, həm də birgə sosial-iqtisadi dinamikaya təkan verməyə hesablanıb.

Maraqlı məqamlardan biri Qarabağ Bəyannaməsində türk dil modeli platformasında süni intellekt layihələrinin uğurlu inkişafı üçün üzv dövlətlərin vahid dil modelinin yaradılması zərurətinin qeyd olunmasıdır. Bu ideyanın gerçəkləşməsi xalqlararası ünsiyyəti asanlaşdıracaq, mədəniyyətlərarası dialoqun inkişafına təkan verəcək.

### Təşəbbüslər

Bütövlükdə 200 milyondan artıq əhalisi olan Türk dünyası geniş coğrafi ərazini əhatə edir və əhəmiyyətli enerji ehtiyatlarına, nəqliyyat kommunikasiyalarına və müasir müdafiə imkanlarına malikdir. Türk Şurasının 2021-ci il noyabr toplantısında yaradılan Türk Dövlətləri Təşkilatı səviyyəsinə yüksəldilməsindən bugünədək müxtəlif istiqamətlər üzrə 30-a yaxın təşəbbüs irəli sürülüb. Bu gün onların ardıcıl şəkildə həyata keçirilməsi üçün imkanlar mövcuddur. 2023-cü ildə TDT-yə üzv dövlətlər arasında ticarət dövriyyəsi 2022-ci illə müqayisədə 27,3 faiz artaraq 42 milyard dollara çatıb. Quruma daxil olan dövlətlərin ümumi ÜDM-i hazırda 1.5 trilyon dollar təşkil edir.

Bu barədə çıxışında danışan Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev toplantı iştirakçılarını Xəzərin xilasına yönəlmiş konkret həll yollarının işlənib hazırlanmasına çağırıb. Bu problemin təkcə Xəzər hövzəsindəki "beşliy"i deyil, TDT-dəki bütün ölkələri də əhatə etdiyini vurğulayan Qazaxıstan lideri Xəzərin xilası üçün Türk ölkələrinin alimləri arasında qarşılıqlı əlaqənin intensivləşdirilməsini vacib sayıb. O, çıxışında Aral dənizinin quruması probleminin həllinə də diqqət çəkib.

Şuşa Zirvə görüşünün iştirakçıları TDT katibliyinin tərkibinin genişləndirilməsi və birjadankənar büdcənin artırılması barədə də qərar imzalayıblar. Bu strateji sənədə TDT-nin gələcək inkişafı üçün onlarca təşəbbüs, xüsusən də Rəqəmsal İqtisadi Tərəfdaşlıq Sazişi üzrə danışıqların başa çatdırılması, Dəmir Yolları İdarəetmə Şurasının yaradılması, Dəmir Yolları üzrə Tədqiqat Mərkəzinin formalaşdırılması, eləcə də, İnsan kapitalının inkişafı layihələri daxildir.

Sammitdə çıxış edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev qazaxıstanlı həmkarının TDT-nin İnsan Kapitalının İnkişafı üzrə Tədqiqat Mərkəzinin yaradılması təşəbbüsünü dəstəkləyərək, onu Özbəkistanda yerləşdirməyə hazır olduğunu bildirib. "Dünyada uran istehsalının təxminən 52 faizi Qazaxıstan və Özbəkistanın payına düşür. Bu baxımdan Mərkəzi Asiya gözlənilmədən qlobal dünyada çox mühüm status qazanıb", – deyən Özbəkistan lideri TDT coğrafiyasında sabitliyin qorunmasına tələbatın artdığını, bunun quruma üzv dövlətlərin daxili təhlükəsizlik və müdafiə qüvvələri tərəfindən həyata keçirilməsi ideyasını dəstəklədiyini qeyd edib.

Həmçinin, Özbəkistan Prezidenti və Macarıstanın Baş naziri ikitərəfli görüşdə TDT regionlarının birgə forumunun keçirilməsi və onun əsasında daimi kommunikasiya platformasının yaradılması perspektivlərini müzakirə ediblər. Bu strukturun TDT-nin üçüncü ölkələrdə – Avropa İttifaqından tutmuş Rusiyaya qədər türk diasporlarının məskunlaşdıqları regionlara təsirini genişləndirməyə kömək edəcəyi, "Türk dünyasına baxış – 2040" strateji sənəddə təsbit edilmiş məqsədlərə çatmaqda önəmli rol oynayacağı şəksizdir.

*

Danılmaz həqiqətdir ki, Türk dövlətləri rəhbərlərinin Azərbaycanın işğaldan azad edilmiş torpaqlara səfərləri qardaşlığın, birliyin və həmrəyliyin təzahürüdür. Son üç ildə Türkiyə Prezidenti Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla, Özbəkistan və Qazaxıstan prezidentləri Şuşa və Füzuliyə, Qırğızıstan Prezidenti Füzuli və Ağdama səfərlər etmişlər. Bu səfərlər və TDT-nin Zirvə görüşündə səslənən çağırışlar zəferimizin qalası sayılan Şuşanın dünyada nüfuzunun və şöhrətinin artmasına xidmət edir.

Sonda onu da qeyd edək ki, Zirvə görüşündəki çıxışında Prezident İlham Əliyev TDT-yə üzv ölkələrin başçılarının hər birini bu ilin noyabrında Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin nüfuzlu COP29 tədbirinə dəvət etdi. Dövlətimizin başçısı çıxışında dedi ki, Azərbaycanın COP29-a sədrlik etməsi, bu tədbirin Bakıda keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük etimadın bariz nümunəsidir.

Beləliklə, yaxın gələcəyə yönəlik Türk birliyi ideyası təkcə etnomədəni qardaşlığın simvolu deyil, eyni zamanda sosial-iqtisadi dinamikaya, elmi-texniki tərəqqiyə təkan verən milli doktrina, Avrasiya transregional inteqrasiya layihələrinin tərkib hissəsidir. Bu ideya, Prezident İlham Əliyevin dediyi kimi, XXI birinci əsrin Türk dünyasının inkişafı əsrinə çevrilməsinə xidmət edəcək.

### Şuşa Zirvə görüşü qardaş medianın aynasında

Yeri gəlmişkən, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) aparıcı xəbər agentlikləri, televiziya kanalları və qəzetləri Şuşada keçirilən TDT dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünü geniş işıqlandırıblar. "Sabah" qəzeti Şuşa görüşü barədə "Bizim gücümüz birliyimizdədir" sərlövhəli məlumat verib. "NTV" telekanalı reportajında Türkiyənin Xarici işlər naziri Hakan Fidanın tezliklə türk dünyasının vahid əlifbasını yaratmaq çağırışına diqqət çəkib.

"Hürriyyət" qəzetinin yazılarında Ankaranın Ermənistanla dialoqa dair mövqeyi, vahid türk əlifbasının yaradılması, Türkiyənin Ukraynada müharibəyə son qoymaq səyləri və ŞKTC xalqının hüquqlarının təmin edilməsinin vacibliyinə diqqət yetirilir. Nəşr Türkiyənin xarici işlər naziri Hakan Fidanın Yaxın Şərqdə qırğını dayandırmağın zəruriliyi ilə bağlı sözlərini sitat gətirir: "Türk dünyası bölgədəki humanitar dramdan üz çevirməməlidir".

ŞKTC mediası Şuşada TDT-yə üzv ölkələrin liderlərinin qeyri-rəsmi Zirvə görüşünün Türk dünyasında birlik və əməkdaşlıq baxımından əhəmiyyətindən yazıb. Şimali Kiprin "BRTK" telekanalı ŞKTC Prezidenti Ersin Tatar və Xarici işlər naziri Tahsin Ərtoğruloğlunun Şuşadakı çıxışları barədə oxuculara məlumat verib, Azərbaycanın mədəniyyət paytaxtından reportajlar hazırlayıb, canlı yayımlar edib.

"Halkın Sesi" və "Kıbrıs Hakikat" qəzetləri Şuşa Zirvə görüşündə müzakirə edilən mövzularla bağlı silsilə məlumatlar dərc edərək, Kipr türklərinin lideri və ölkənin Xarici işlər nazirinin Şuşadakı çıxışlarından ətraflı söz açıb.

"Kıbrıs Postası" nəşri Şimali Kipr diplomatiyasının başçısının çıxışı ilə bağlı ayrıca xəbər hazırlayıb. Məqalədə deyilir: "Ərtoğruloğlu Türk dünyasının liderlərinə Lefkoşanın üstünlükləri barədə məlumat verib, onun əməkdaşlığa və ŞKTC-nin inkişafına hazır olduğunu vurğulayıb".

***İmran BƏDİRXANLI***
***XQ***

#### Ekspert rəyi



**Arzu ABDULLAYEV,**
**Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru**

Azərbaycan Prezidenti İlham Əliyevin atdığı əməli addımlar sayəsində eyni soykökə, dilə, dinə, mədəniyyətə və digər ortaq dəyərlərə bağlı Türk dövlətləri arasındakı münasibətlər hazırda öz inkişafının kulminasiya nöqtəsinə yüksəlib. Təbii ki, bu əlaqələrin yüksək səviyyəsi öncə regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına hədəflənib. Bu gün dövlətimizin başçısının türkdilli dövlətlər arasında coğrafi bağlılığın bərpa edilməsində, Türk dünyasının birlik arzusunun reallığa çevrilməsində misilsiz xidmətləri var. Türk Şurasının Naxçıvandan başlanan inkişaf yolunda İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan TDT-nin tərəqqisinə, onun sıralarının genişlənməsinə, beynəlxalq aləmdə nüfuzunun artmasına önəmli töhfələr verib.

Prezident İlham Əliyev türkdilli ölkələr və xalqlar arasında dostluğun, qardaşlığın və əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün ciddi səylər göstərib, TDT-nin digər nüfuzlu beynəlxalq təşkilatlar ilə səmərəli əməkdaşlığın qurulmasına çalışıb. Qarabağ savaşındakı tarixi zəfərimiz Türk dünyasında birliyin və həmrəyliyin daha da gücləndirilməsində mühüm rol oynayıb. Hazırda regionda həyata keçirilən transmilli layihələr TDT-nin iştirakı olmadan reallaşa bilməz. Dövlətimizin başçısı bu faktı TDT-nin Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşündə bir daha təsdiqlədi.

"Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsi" müstəsna siyasi və tarixi əhəmiyyəti ilə daim xatırlanacaq tarixi sənəddir.

Bu gün dünyada baş verən qlobal dəyişikliklər fonunda TDT-nin güclənməsinin əhəmiyyəti özünü aydın şəkildə büruzə verir. Bu isə regional və beynəlxalq sabitlik, təhlükəsizlik kontekstində müstəsna əhəmiyyət daşıyır.

#### Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi**

Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi sammitinin Şuşada keçirilməsinin çox böyük əhəmiyyəti var. Azərbaycanın işğaldan azad olunmuş bölgəsinə, azad edilmiş şəhərinə Türk dövlətləri başçılarının təşrif buyurması onların ölkəmizə növbəti dəstəyinin ifadəsi kimi qiymətləndirilməlidir. Doğrudur, bu birliyə bəzi dövlətlər müəyyən təzyiqlər göstərməyə cəhdlər edirlər. Xüsusilə, Avropanın tanımadığı Şimali Kipr Türk Cümhuriyyətinin başçısının, Macarıstan Baş nazirinin bu sammitdə iştirakına qarşı etirazları eşidirdik. Amma onu da deyək ki, bu cür tənqidi bəyanatlara macarların yaxşı cavabı oldu. Rəsmi Budapeşt onlara "bəlkə harada nahar edəcəyimizi də Avropa İttifaqından, Brüsseldən soruşmalıyıq" kimi kəskin reaksiya verdi. Müstəqil siyasət yürüdən cənab Viktor Orbana Avropa İttifaqı daxilində həmişə təzyiq göstərilib. O, bütün bunlara sinə gərərək, öz sözünü deyib, dövlətinin maraqlarını daim qorumağa hazır olduğunu bəyan edib.

Şimali Kipr Türk Cümhuriyyətinə gəldikdə isə Şuşa Zirvə görüşünə Ersin Tatarı Azərbaycan Prezidenti İlham Əliyev şəxsən dəvət edib. Bu, onun Azərbaycana ikinci dəvətidir. Güman edirəm ki, yaxın gələcəkdə Mərkəzi Asiya dövlətlərinin başçıları da Ersin Tatarı öz ölkələrinə dəvət edəcəklər. Yəqin bunun ardında ŞKTC-nin TDT-yə üzvlüyü məsələsi gündəmə gətiriləcək və onun müstəqil dövlət kimi tanınması mövzusu da aktuallaşacaq.

Qarabağ Bəyannaməsinin imzalanması isə xüsusi əhəmiyyət kəsb edir. Burada Çinin də iştirakı, Pekinin Orta dəhlizi dəstəkləməsi çox önəmli məsələlərdir. Türk dövlətləri arasında inteqrasiyanın, Türk ailəsinin gücləndiyi, Orta Asiya ölkələrinin də ortaq layihələrə marağının artdığı göz qabağındadır. Gələcəkdə TDT daxilinə hərbi əməkdaşlıq sahəsində də önəmli addımlar atılacaqdır.

# Qarabağ Bəyannaməsi Türk dünyasını yeni hədəflərə yönləndirir



**Azərbaycan Respublikasının təşəbbüsü ilə 2024-cü il iyulun 6-da Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının "Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması" mövzusunda qeyri-rəsmi Zirvə görüşündə strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün iqtisadi, nəqliyyat və digər sahələrdə türk dövlətlərinin tam potensialından istifadə edilməsinin vacibliyi bir daha vurğulanıb.**

Zirvə görüşündə ticarət həcmlərini artırmaqla, limanlara, dəmir və avtomobil yollarına, həmçinin logistika qovşaqlarına infrastruktur investisiyalarını cəlb etməklə dayanıqlı inkişaf, iqtisadi rifah və beynəlxalq ticarət üçün təməl daşı kimi Avropa–Türkiyə–Cənubi Qafqaz–Mərkəzi Asiya–Çini birləşdirən Trans–Xəzər Beynəlxalq Dəhlizi vasitəsilə üzvlər arasında regional əlaqəni, eyni zamanda, inteqrasiyanı gücləndirmək, nəqliyyat əməliyyatlarını, gömrük prosedurlarını optimallaşdırmaq, bütün bunlarla yanaşı, rəqəmsallaşmanı əhatə etmək üçün üzv dövlətlər arasında sıx əməkdaşlığa çağırışlar səsləndirilib.

Bu məqsədlə toplantıda nəqliyyata məsul olan nazirlərə nəqliyyat və tranzit prosedurlarının optimallaşdırılması və rəqəmsallaşdırılması, daha çox yükdaşıma həcminin artırılması üçün özəl sektor üçün stimullaşdırıcı mexanizmlərin təqdim edilməsi, habelə dəhliz boyu müntəzəm nəqliyyat xidmətlərinin yaradılması istiqamətində gələcək addımların atılması tapşırılıb.

Zirvə görüşündə, eyni zamanda, Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin modernləşdirilməsini, bu yolboyu mal və nəqliyyat vasitələrinə gömrük nəzarətinin sürətləndirilməsi ilə bağlı Azərbaycan, Gürcüstan və Türkiyənin üçtərəfli səyləri yüksək qiymətləndirilib. Bundan başqa Qırğız Respublikasının Nazirlər Kabineti, Çin Xalq Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında 2024-cü il iyunun 6-da imzalanan Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin təşviqi istiqamətində birgə əməkdaşlıq üzrə tarixi saziş bütün TDT regionunda beynəlxalq ticarətin, investisiya və tranzit potensialının artırılması baxımından dəyərləndirilib.

Toplantıda diqqətçəkən bir məqamı da qeyd etmək istərdik. Belə ki, bu gün Azərbaycan COP29-a ciddi hazırlaşır. Bu cür nüfuzlu tədbir ərəfəsində rəsmi Bakı iqlim dəyişikliyi və onun türk dövlətlərinin dayanıqlı inkişafına təsirinə birgə iqlim fəaliyyəti yolu ilə cavab verilməsində daha sıx əməkdaşlığın zəruriliyini diqqətə çatdırır. Ölkəmiz günəş, külək və su elektrik enerjisi kimi təmiz enerji mənbələrinin inteqrasiyasına önəm verməklə dayanıqlı inkişafın təşviqinə və rəqəmsal infrastruktur, ictimai xidmətlər yolu ilə həyat keyfiyyətinin yaxşılaşdırılmasına başlıca vəzifə kimi yanaşır, eyni zamanda, iqtisadi artımı gücləndirmək, iqlim fəaliyyətini dəstəkləmək məqsədilə türk dövlətləri çərçivəsində "ağıllı şəhər və kəndlər" konsepsiyasının gerçəkləşdirilməsini diqqətdə saxlayır.

Bütün bunlar iyulun 6-da Şuşada imzalanan "Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsi"ndə də aydın ifadə edilib. Sənəddə, eyni zamanda, türk dövlətlərində bərpaolunan zəngin enerji potensialı, elektrik enerjisinin ixracı və ticarəti üçün hazırda reallaşdırılan layihələrin önəmi diqqətə çatdırılıb. Türk Dövlətləri Təşkilatı ölkələrinin mövcud imkanlarından və infrastrukturundan istifadə etməklə Avropa ilə Asiya arasında yeni telekommunikasiya magistral marşrutu yaratmaq məqsədi daşıyan "Rəqəmsal İpək Yolu" layihəsinin fəal yerinə yetirilməsi isə yüksək dəyərləndirilib.

Xatırladaq ki, "Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsi"ndə vurğulandığı kimi, bu gün rəqəmsal hökumət (e-hökumət) infrastrukturlarının daha da inkişaf etdirilməsi üzrə türk dövlətləri arasında əməkdaşlıq gücləndirilir, elektron sənəd mübadiləsi üçün "e-imza/rəqəmsal imza" mexanizmlərinin uyğunlaşdırılması və onlayn dövlət xidmətlərinin inteqrasiyası diqqətdə saxlanılır, kiberinsidentlərə və kiberhücumlara qarşı ümumi kibertəhlükəsizliyin qorunması tədbirlərininin keçirilməsinə xüsusi önəm verilir, süni intellekt üzrə siyasətlərin, təlimatların və tərəfdaşlıqların qurulması prioritetlər istiqamətlər sırasında yer alır.

Nəhayət, Qarabağ Bəyannaməsində diqqət milli kosmik proqramların potensialının və rəqabət qabiliyyətinin artırılması məqsədilə kosmik layihələrin birgə inkişafı üçün səylərin birləşdirilməsinə, texnoloji inkişaf səviyyəsinin artırılması üçün kosmik texnologiyalar sahəsində kompleks inkişafın zəruriliyinə yönəldilir.

## Ekspert rəyi

**Vüsalə CƏFƏROVA,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Türk Dünyası Araşdırmalar Mərkəzinin (TDAM) rəhbəri**



Prezident İlham Əliyevin təşəbbüsü ilə Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü və bu tədbir çərçivəsində imzalanan Qarabağ Bəyannaməsi Türk dünyasının iqtisadi əməkdaşlığının gücləndirilməsi istiqamətində mühüm addımdır.

Azərbaycan və Türkiyənin rəsmi müttəfiqliyinin əsasını qoyan Şuşa Bəyannaməsinin imzalanmasının üçüncü ildönümündə bu qədim mədəniyyət paytaxtımızda keçirilən zirvə toplantısında liderlərin verdiyi bəyanatlar və qəbul edilən qərarlar "Türk dünyasına baxış-2040" çərçivəsində iqtisadi inteqrasiyanın dərinləşdirilməsini hədəfləyir.

Qarabağ Bəyannaməsi türk dövlətləri arasında ticarət əlaqələrinin genişləndirilməsi və iqtisadi əməkdaşlığın dərinləşdirilməsi üçün mühüm prinsipləri özündə ehtiva edir. Bəyannamə çərçivəsində həyata keçiriləcək tədbirlər ölkələr arasında ticarət maneələrinin azaldılması, nəqliyyat və logistika infrastrukturunun təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması istiqamətində vacib addımların atılmasını nəzərdə tutur. Türk İnvestisiya Fondunun (TİF) yaradılması isə bu istiqamətdə atılan ən mühüm addımlardan biridir və fondun fəaliyyəti sayəsində regional ticarət və iqtisadi əməkdaşlıq yeni səviyyəyə qalxacaq.

Qeyd edim ki, 500 milyon dollar nizamnamə kapitalına malik TIF işlək mexanizmlərinin hazırlanmasının Qarabağ Bəyannaməsində yer alması məhz investisiya imkanlarını genişləndirmək və iqtisadi inteqrasiyanı gücləndirmək məqsədi daşıyır. Ümumi əhalisi 170 milyondan çox olan və 1,2 trilyon dollar həcmində ümumi ticarət həcminə və 1,5 trilyon dollar ümumi daxili məhsula (ÜDM), 558 milyard dollar həcmində ixraca malik TDT üzv dövlətlərinin öz aralarında ixracı cəmi 33 milyard dollar (2022-ci il) təşkil edir. Bu, onu deməyə əsas verir ki, üzv dövlətlər arası ticarət, investisiya və iqtisadi əlaqələrin artırılmasını hədəfləyən qərarların Qarabağ Bəyannaməsində qəbul edilməsi böyük əhəmiyyətə malikdir.

Üzv dövlətlər arasında ticarətin artmasında xüsusi önəm kəsb edən Orta Dəhlizin əhəmiyyəti Çindən Avropaya gedən ən sürətli marşrut kimi artmaqdadır. 2040-cı ilə qədər bu dəhliz vasitəsilə tranzit yüklərin həcminin illik 500 milyard ABŞ dollarına çatacağı proqnozlaşdırılır. Bu səbəbdən Azərbaycan və digər TDT üzvləri mövcud sahəni prioritet hesab edir və külli miqdarda investisiyalar yatırırlar.

Zirvə görüşündə liderlər Xəzər regionu vasitəsilə Avropa və Asiya arasında ticarət yollarının genişləndirilməsi və Orta Dəhlizin nəqliyyat vaxtını və xərcləri əhəmiyyətli dərəcədə azaltmasını müzakirə edərək təkmilləşdirmə planlarını bildiriblər. Tərəflər zirvə toplantısında infrastruktura qoyulan investisiyanın iqtisadi faydalarını vurğulayaraq yeni dəmir yollarının tikintisi və mövcud olanların modernləşdirilməsi yolu ilə tranzit vaxtlarını azaltmaq və regional ticarəti gücləndirməyi hədəfləyiblər.

Hesablamalara görə, 2023-cü ilə qədər regionda infrastruktur investisiyaları üzv dövlətlər arasında ticarət həcmlərinin 15faiz artmasına səbəb olub. Üzv dövlətlər arasında ticarət maneələrinin azaldılması üçün səylər göstərilir. Liderlər gömrük prosedurlarının sadələşdirilməsini və 2025-ci ilə qədər regiondaxili ticarəti 20 faiz artırmağı hədəfləyirlər.

Son dövrlər Xarici Birbaşa İnvestisiyalar (XBİ) daxilolmalarında əvvəlki zirvə görüşlərindəki müzakirələrdən sonra artım müşahidə edilir. Hesablamalarımıza görə, 2023-cü ildə Azərbaycanın TDT ölkələrindən XBİ daxilolmaları 25 faiz artaraq investorların artan inamını nümayiş etdirir.

Şuşa sammitində liderlər enerji təhlükəsizliyini artırmaq və davamlı inkişafı təşviq etmək üçün təbii qaz və bərpaolunan enerji mənbələri də daxil olmaqla regionun enerji resurslarından istifadənin vacibliyini vurğulayıblar. 2023-cü ilə qədər enerji sahəsində əməkdaşlıq sazişləri üzv dövlətlər arasında enerji ixracının 30 faiz artması ilə nəticələnib.

Rəqəmsal transformasiyanın iqtisadi inkişafda aparıcı rolu Qarabağ Bəyannaməsində xüsusi vurğulanır. Rəqəmsal infrastrukturun təkmilləşdirilməsi və regionda elektron ticarətin təşviqi təşəbbüsləri üzv dövlətlər arasında onlayn ticarət fəaliyyətlərinin 25 faiz artmasına səbəb olub.

Zirvə görüşü və imzalanan Bəyannamə iqtisadi inteqrasiya, regional infrastrukturun inkişafı, ticarətin asanlaşdırılması, enerji əməkdaşlığı və rəqəmsal transformasiyaya diqqət yetirməklə regionun iqtisadi potensialını daha da açmağı və davamlı inkişafı dəstəkləyir.

Şuşada qəbul edilən qərarlar "Türk Dünyasına baxış-2040" sənədi çərçivəsində iqtisadi inteqrasiyanın və əməkdaşlığın gücləndirilməsi üçün mühüm bir mərhələdir. Türk dövlətləri arasında ticarət və investisiya mühitinin təkmilləşdirilməsi, nəqliyyat və logistika infrastrukturlarının inkişafı, qarşılıqlı ticarətin və iqtisadi əlaqələrin daha da güclənməsinə töhfə veriləcək. Bu tədbirlər Türk dünyasının qlobal iqtisadi sistemdə daha mühüm rol oynamasını təmin edəcək.



## 4 aylıq buğda ehtiyatı

***Ölkəmizdə kənd təsərrüfatında məhsul istehsalının artmasına yönələn tədbirlərin həyata keçirilməsi qarşıdakı illərdə ərzaq təhlükəsizliyinin gücləndirilməsini şərtləndirir. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsinə xidmət edən layihələr də məhz həmin məqsədi daşıyır.***

Hazırda respublikamızın buğda ehtiyatının dayanıqlığı üzərində iş aparılır. Qarşıdakı illərdə 80-100 min hektar arasında torpağın əkin dövriyyəsinə cəlbi planlaşdırılır.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyinin (ADEA) bu barədəki məlumatında hazırda ölkədə 4 aylıq istehlakı qarşılayacaq ərzaqlıq buğda ehtiyatının mövcudluğu bildirilir və bunun yüksək göstərici olduğu vurğulanır.

Məlumatda qeyd edilib ki, ADEA ölkənin strateji əhəmiyyətli istehlak malları üzrə təchizat zəncirinin dayanıqlılığının təmin edilməsi və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişikliyinin qarşısının alınması üçün tədbirlər görür.

## "Qazax aqropark"ının bolluğa töhfəsi

***İqtisadi Zonaların İnkişafı Agentliyinin tabeliyində olan "Qazax aqropark" rayonun sosial-iqtisadi inkişafına mühüm töhfələr verir. "İnvestel GROUP" MMC tərəfindən rayonun İkinci Şıxlı kəndində yaradılan aqroparkın ümumi əkinə yararlı 800 hektar sahəsində kartof, buğda və arpa əkilib. Bununla yanaşı, parkın Abşeron rayonunda yerləşən təsərrüfatında isə 7,5 hektar intensiv badam bağı salınıb.***



2023-cü ildə aqroparkda 12 min ton kartof, 250 ton arpa və 750 ton buğda istehsal olunub. Builki mövsümdə isə sahələrdən 645 ton buğda toplanıb. Cari ildə aqroparkın 340 hektar ərazisində əmtəəlik kartof əkilib. Bugünlərdə parkın kartof sahəsində məhsul yığımına başlanılıb. Əkin sahəsində kartofun orta məhsuldarlığı 40-41 ton təşkil edir.

Qeyd edək ki, "Qazax aqropark"da gündəlik 250 ton kartofun təmizlənməsi, çeşidlənməsi və qablaşdırılması xətti, tutumu 7800 kubmetr, Abşeronda isə tutumu 14 min 889 kubmetr olan 2 soyuducu anbar kompleksi fəaliyyət göstərir.

# Bakıda Yay Enerji Məktəbinin COP29 dərsi

(əvvəli 1-ci səhifədə)

ADA Universitetinin rektoru Hafiz Paşayev çıxışında Bakı Yay Enerji Məktəbinin 2007-ci ildən bəri hər il keçirildiyini xatırladıb. O qeyd edib ki, proqramın Xəzər regionu ölkələrində enerji və ekoloji problemlərə diqqət yetirməsi həm yerli, həm də beynəlxalq iştirakçılar üçün faydalıdır.

Universitetin prorektoru, İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə builki yay məktəbinin mövzusunun bərpaolunan, "yaşıl enerji" olduğunu və 2024-cü illin noyabr ayında Bakıda keçiriləcək COP29 konfransına həsr olunduğunu diqqətə çatdırıb. O deyib ki, yay məktəbi Azərbaycanın 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40 faiz azaltmaq planının mühüm hissəsi olan bərpaolunan enerji potensialının inkişaf etdirilməsi öhdəliyinə töhfə vermək məqsədi daşıyır.

Ekologiya və təbii sərvətlər naziri, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) prezidenti Muxtar Babayev bildirib ki, Azərbaycan uzunmüddətli davamlı inkişafı təmin etmək üçün qalıq yanacaq sənayesindən əldə edilən gəlirlərdən istifadə edir. Bu ilin noyabrında bütün dünyanın qlobal iqtisadiyyatı sıfır emissiyaya uyğunlaşdırmaq və qlobal istiləşməni 1,5 dərəcə hədəflə məhdudlaşdırmaq üçün Bakıda toplaşacağını xatırladan nazirin sözlərinə görə, əsas iqtisadi vəzifə layihənin həyata keçirilməsi üçün sıfır emissiyaya keçidə imkan verəcək şəraiti yaratmaqdır: "Əsas prinsiplərdən biri iqlim dəyişikliyi ilə mübarizədə hər kəsə dəstək olmaqdır. Biz ölkələri emissiyaları azaltmaq, iqlim dəyişikliyinin təsirlərinə uyğunlaşmaq və fəaliyyətləri haqqında şəffaf hesabat təqdim etmək üçün yeni planlar hazırlamağa təşviq edəcəyik. Buna görə də biz emissiyaların azaldılması üzrə milli planımızı yeniləmək üzərində işləyirik", – deyə nazir əlavə edib.

COP29-da iqlim dəyişikliyi ilə mübarizə üçün aydın və iddialı yeni maliyyə planının razılaşdırılmasının vacibliyini önə çəkən Muxtar Babayev deyib ki, bu, bir çox inkişaf etməkdə olan ölkələri geridə qoyan maneələri aradan qaldırmağa və planet üçün qlobal maliyyə sistemini yenidən qurmağa kömək edəcək.

Energetika naziri Pərviz Şahbazov çıxış edərək bildirib ki, hazırda karbon qazı emissiyalarının azaldılması məsələsi Azərbaycanın enerji gündəliyində mühüm yer tutur. Diqqəti ötən ilin statistikasına cəlb edən nazirin dediyinə görə, ölkəmizin enerji resurslarının, demək olar ki, 75 faizi Avropaya ixrac edilib. Qeyd olunub ki, Azərbaycan Avropada şaxələndirmə və enerji təhlükəsizliyini təmin etmək üçün mühüm təşəbbüsü həyata keçirməyə davam edir. Hazırda ölkəmizin qlobal enerji keçidi məsələləri üzərində də işlədiyini vurğulayan P. Şahbazov xatırladıb ki, Azərbaycan yeni sosial-iqtisadi strategiya qəbul edib və prioritet məsələlərdən biri "yaşıl inkişaf"dır.




"Azərbaycanda "yaşıl enerji"yə keçid bütün maraqlı tərəflərin əməkdaşlığını tələb edir". Bu fikri isə Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf tədbirin açılış mərasimindəki çıxışı zamanı səsləndirib. İstənilən siyasi qərarın bu keçidin istiqamətinə və sürətinə təsir edəcəyini vurğulayan R.Nəcəfin sözlərinə görə, bu baxımdan hər şey razılaşdırılmalı, bütün maraqlı tərəflər sözügedən məqsədə çatmaq üçün öz fəaliyyətlərini əlaqələndirməlidirlər.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə prezidenti Qəri Counz açılış mərasimindəki çıxışı zamanı deyib ki, son 30 ildə neft və qaz yataqlarının işlənilməsi sayəsində Azərbaycan bütün regionun və Avropanın enerji təhlükəsizliyini təmin edib. Bunun əhəmiyyətli texniki resurslar tələb etdiyini vurğulayan Q. Counz bildirib ki, uzunluğu 3,5 min kilometrdən çox olan Cənub Qaz Dəhlizi hazırda Avropanı təbii qaza olan ehtiyacını ödəyir. O, Bakı Enerji Məktəbinin əhəmiyyətinə toxunaraq burada təlim keçmiş istedadlı tələbələrin enerji keçidinin mürəkkəb prosesinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Qeyd edək ki, Bakı Yay Enerji Məktəbi Xəzər regionuna xüsusi diqqət yetirərək enerji və ekologiya məsələlərini araşdırmaq və öyrənmək üçün dünyanın tanınmış alimlərini, siyasətçilərini və ekspertlərini bir araya gətirən beynəlxalq iki həftəlik sertifikat proqramıdır. Proqram Xəzər regionunun enerji landşaftında transformativ dəyişikliklərə, davamlı inkişafa və iqtisadi artıma töhfə vermək üçün dövlət və özəl sektorların kollektiv səylərini özündə əks etdirir.

İnteraktiv mühazirələr, nümunə araşdırmaları və tədqiqat səfərləri ilə zəngin olan bu yay proqramı tanınmış enerji şirkətlərindən, beynəlxalq təşkilatlardan, ali təhsil müəssisələrindən yüksək və orta səviyyəli mütəxəssisləri, eləcə də enerji və ekoloji məsələləri araşdıran alim və ekspertləri cəlb edib. Builki proqramda 12 ölkəni təmsil edən 50 nəfər iştirak edəcək. Həmin ölkələr sırasında Azərbaycan, Albaniya, Bolqarıstan, Çexiya, Çin, Macarıstan, Rusiya, Səudiyyə Ərəbistanı, Türkiyə, Vyetnam, ABŞ və, Böyük Britaniyanın qeyd etmək olar.

Proqram iştirakçıları Çexiyanın Sənaye və Ticarət Nazirliyini, Bolqarıstan Xarici İşlər Nazirliyini, Səudiyyə Ərəbistanının Energetika Nazirliyini, Vyetnam Neft və Qaz Qrupunu, Azərbaycan Respublikası Dövlət Neft Şirkətini, "bp Azərbaycan"ı , ABŞ və Macarıstandakı beyin mərkəzlərini və digər təşkilatları təmsil edirlər.

İntensiv iki həftəlik proqram bir həftə Bakıda, bir həftə isə Gürcüstanın paytaxtı Tbilisidə iyulun 8-dən 19-dək keçiriləcək. Məktəbin bu beynəlxalq formatı iştirakçılara enerji məsələləri və "Yaşıl Enerji" Dəhlizi ilə bağlı regional perspektivləri öyrənməyə, klassik enerji mənbələri və bərpa olunan enerji mövzularına kompleks regional yanaşmanı təmin etməyə imkan verir.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Yaddaşlarda yaşayanlar

# Nazim Hacıyev Anastas Mikoyanın məkrli planını necə pozub?

(əvvəli 1-ci səhifədə)

Xalqımızın bu dəyərli övladının həyatı və fəaliyyəti bu gün də geniş ictimaiyyət arasında daim böyük maraq doğurur. Bunu nəzərə alaraq "Xalq qəzeti"nin redaksiya heyəti Nazim Hacıyevin oğlu, tarix elmləri doktoru, professor Aydın Hacıyevi Xalq TV-yə dəvət etmiş və ondan geniş müsahibə almışdır. Müsahibənin bəzi məqamlarını qəzetimizin hörmətli oxucularının nəzərinə çatdırmağı qərara almışıq.

***– Aydın müəllim, söhbətə atanız barədə avtobioqrafik məlumatları xatırlatmağınızla başlayaq.***

– Məmnuniyyətlə. Atam 1924-cü il 6 iyunda Şəkidə anadan olub. İxtisasca filoloq idi. Şəkinin Baş Küngüt kəndindəki orta məktəbdə dərs hissə müdiri, rayon xalq maarifi şöbəsində metodist, 1943-cü ildə "Nuxa fəhləsi" qəzetinin məsul katibi



vəzifələrində işləmişdir. Yüksək təşkilatçılıq qabiliyyətinə, dərin bilik və zəkaya sahib olduğunu nəzərə alaraq hələ gənc yaşlarında məsul vəzifələrə irəli çəkmişlər. 1941–47-ci illərdə Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığında məsul vəzifəyə təyin edilmişdir. Bakı şəhər Komsomol Komitəsinin katibi, 1950-ci ildə Azərbaycan KP. Bakı Komitəsi təbliğat şöbəsinin təlimatçısı, Azərbaycan Tibb İnstitutunun partiya komitəsinin katibi, 1951-ci ildə isə Respublika Gənclər İttifaqı Mərkəzi Komitəsinin katibi, 1952-ci ildə isə I katibi seçilmişdir. 1958-ci ildən 1960-cı ilə qədər SovİKP MK-da müxtəlif vəzifələrdə çalışmış, 1960-cı ildə isə Azərbaycan KP MK-nın ideoloji məsələlər üzrə katibi vəzifəsinə seçilmişdir.

***– Bildiyimizə görə, babanız da xalq arasında hörmətli, kübar nəslin nümayəndəsi olub...***

– Bəli, elədir. Babam Məmmədiyə kişi, həqiqətən, Şəkinin adlı-sanlı nəslinin nümayəndəsi olub. Nənəm Bəxti xanım isə İrəvan bəylərinin nəslindəndir. Rusiya Ordusunun polkovniki, məşhur Abbasqulu xanın oğlu Kərim xan İrəvanskinin qızıdır. Onu da qeyd edim ki, Kərim xan İrəvanski Azərbaycan tarixində ilk dəfə olaraq böyük xeyriyyəçi, milyonçu Hacı Zeynalabdin Tağıyevin maddi vəsaiti ilə Qızlar Seminariyasını qurmuşdur. Nənəm Bəxti xanım Hacı Zeynalabdinin qızı Sara xanımla həmin məktəbin ilk məzunları olmuşlar. Nənəmlə Sara xanım yaxın rəfiqə olublar.

Məhz illər sonrası Sara xanım baxımsız, əlacsız vəziyyətdə qalarkən Bəxti xanımın oğlu, yəni atam Nazim Hacıyev onu himayəsinə götürmüş, Sara xanıma diqqət və qayğı göstərməyə çalışmışdır.

***– Bir vaxtlar Sara xanıma qarşı çox haqsızlıqlar olub. Bu gün bu barədə düşünəndə belə adamın ürəyi ağrıyır...***

– Sara xanımın başı çox bəlalar çəkib. Amma ona diqqət və qayğı göstərən kişilər də tapılıb. Fəxrlə deyə bilərəm ki, belə xeyirxah insanlardan biri də atam olub.

Sara xanımla bağlı bir xatirəni danışmaq istəyirəm. 1961-cı ilin oktyabr günləri olub. Atama qəbuluna bir xanımın yazıldığını deyiblər. O, kim olsa, yaxşıdır? Sara xanım Tağıyeva! Atam bunu bilən kimi onu növbədənkənar, yüksək səviyyədə qəbul edib.

Sara xanım atamdan xahiş edib ki, onun işlə təmin olunmasına kömək etsin. Atam dərhal telefonun dəstəyini götürüb Azərbaycan Dövlət Universitetinin ovaxtkı rektoru, akademik Şəfaət Mehdiyevə zəng edib:

***– Sizin yanınıza Sara xanım Tağıyevanı göndərirəm. Xahiş edirəm, onu işlə təmin edəsiniz.***

– Burada bir haşiyə çıxaraq demək istəyirəm ki, o illərdə atamın vəziyyəti get-gedə ağırlaşdığına görə, Sara xanımı köməkçisi Zakir Bağırova da tapşırır. Sonralar o, mədəniyyət naziri oldu. Görkəmli dövlət xadimi Vəli Məmmədov da atamın yanında işləyirdi. Atam ağır vəziyyətdə olanda onun işlərini Vəli Məmmədov aparırdı. Ona görə də, Nazim Hacıyev Sara xanıma kömək etmək üçün ona da tapşırıqlarını vermişdi.

Atam söhbətin sonunda Sara xanıma demişdi ki, hər zaman qapısı onun üzünə açıqdır, elə bilin ki, oğlunuzun yanına gəlirsiniz. Qeyd etmək lazımdır ki, o dövrdə "Xalq düşməni"nin qızına belə yüksək münasibət göstərmək böyük cəsarət tələb edirdi.

Ayrılarkən atam Sara xanıma xeyli məbləğdə maddi yardım da edib. Özü də bunu çox nəzakətlə, qonağın heysiyyatına toxunmamağa çalışaraq edib.

Bu görüş Sara xanımı çox təsirləndirib. O, "Ədəbiyyat və incəsənət" qəzetinin 17 aprel 1989-cu il tarixli nömrəsində dərc olunmuş xatirələrində bu barədə belə yazmışdır:

"Həmin gün İçərişəhərdə bir xeyli bazarlıq etdim...Mən onda anladım ki, Nazim məni bağrına ona görə bərk-bərk basırdı ki, pulu cibimə qoysun və mən bunu hiss etməyim. Nazim mənim üçün çox doğma idi. Uşaqlığımın, yeniyetməliyimin dostu olan Bəxti xanımın oğlu idi".

Fəxrlə bildirmək istəyirəm ki, Nazim Hacıyev bütün varlığı ilə türkçü idi. Atam görkəmli alim Yusif Məmmədəliyevlə də ata-bala kimi yaxın idi. Yusif Məmmədəliyevin atamla bir-birinə sıx bağlılığını onların Şamaxı səfərində görmüşdüm, ora məni də aparmışdılar. Bu böyük alimin zarafatları, məni əzizləməsi heç vaxt yadımdan çıxmayacaq. Onun cərrahiyyə masasında rəhmətə getməsindən atam çox sarsılmışdı. Sanki ailəmizin bir üzvünü itirmişdik. Bütün ailəmiz hüzn içində idi.

***– Nazim Hacıyev ideoloji katib vəzifəsində çalışarkən xalqımız növbəti dəfə erməni məkri ilə üzləşməli olub. Bu barədə müfəssəl danışmağınızı istərdim.***

–1960-cı illərin əvvəllərində xalqımıza qarşı yenidən "qara buludlar axışmağa" başlamışdı və atam məhz həmin qara niyyətlərin qurbanına çevrilmişdir. Hadisə belə olmuşdur. Amerika Birləşmiş Ştatlarının Boston şəhərində yaşayan erməni millətçiləri orada "Ramqavar" milli burjuaziya partiyası yaratmışdılar. Həmin partiyanın orqanı olan "Baykar" ("Mübarizə") qəzeti erməni dilində nəşr olunurdu. Erməni millətçiləri bu qəzet vasitəsilə Sovet İttifaqı Kommunist Partiyasına məkrli müraciət etmişdilər. Orada Sovet Ermənistanının yaranmasının 40 illiyi münasibətilə Naxçıvan MR və Dağlıq Qarabağ Muxtar Vilayətinin hədiyyə olaraq Ermənistan SSR-ə birləşdirilməsi xahiş olunurdu.

Bu, o illər idi ki, SSRİ hökuməti ilə ABŞ arasında soyuq münasibətlər hökm sürürdü. Beləliklə, Amerikadan gələn məktub Sov İKP. MK-da müzakirəyə çıxarılır. Mikoyanın və Mixail Suslovun təşəbbüsü və təklifi ilə məktub Azərbaycan KP MK-ya razılıq arayışı təqdim edilməsi üçün göndərilir.

O vaxt Azərbaycan KP MK-nın I katibi işləyən Vəli Axundov Moskvadan gələn məktuba dərkənar qoyaraq atama tapşırıq verir ki, müvafiq arayış hazırlasın. V.Axundov, həmçinin deyir ki, sənin verəcəyin qərarla mən razı olacağam. O, yaxşı bilirdi ki, Nazim Hacıyev heç vaxt xalqının və dövlətinin əleyhinə addım atmaz.

Atam respublikanın məşhur tarixçilərini, akademiklər Əlövsət Quliyevi, Əlisöhbət Sumbatzadəni və bir çox digər sanballı alimləri bir yerə toplayıb onlarla geniş müzakirələr aparır. Bu müzakirələrin nəticəsi olaraq belə bir yekdil qərar qəbul edirlər ki, Dağlıq Qarabağ və Naxçıvan əraziləri Azərbaycanın hüquqi və tarixi torpaqlarıdır. Bu ərazilər heç vaxt heç bir dövlətə verilə bilməz!

Həmin arayış tam mətnlə Nazim Hacıyevin imzası ilə Moskvaya göndərilir. Anastas Mikoyan bundan çox qeyzlənir və "partiyanın 1 nömrəli ideoloqu" hesab olunan Suslova şikayət edir. Suslov gecəyarısı evimizə zəng vuraraq atamı təcili olaraq Moskvaya çağırdı.

Atam vaxtından da 3 gün əvvəl Moskvaya yola düşdü ki, ölkənin ovaxtkı rəhbəri Nikita Xruşşova yaxın, məsul şəxslərlə danışıb, onlar vasitəsilə Xruşşovun verəcəyi qərara təsir göstərsin. Moskvada keçirilən qızğın müzakirələr zamanı Suslov və Mikoyan atamı qatı millətçilikdə ittiham edirlər. Onlar hətta hiddətlə deyirlər ki, bu adam millətçidir, onu bu vəzifəyə kim qoyub?

Atam ayağa qalxıb onlara cavab vermək istəyəndə, Xruşşov bildirir ki, respublikalar arasında torpaq bölgüsündən söz gedə bilməz, bu milli nifaqa, SSRİ-nin dağılmasına gətirib çıxara bilər. N.Xruşşov Amerikadan göndərilən həmin məktubu yerə ataraq deyir: Bu məsələ qurtardı!

O vaxtkı SSRİ DTX-sının rəhbəri Şelepin də Nazim Hacıyevi müdafiə edir.

Lakin elə həmin günlərdən sonra N.Hacıyevin taleyinə qara xətlər çəkilməyə başlayır.

Bakıya qayıtdıqdan sonra səhhəti kəskin pisləşməyə doğru gedir. Atama Kremldəki xəstəxanada cərrahi əməliyyat olunmağı məsləhət bilirlər. Beləliklə, atam anamla birgə Moskvaya yola düşür. Atam yola düşməzdən əvvəl akademik Mustafa Topçubaşova müraciət edir ki, siz də, xahiş edirəm, Moskvaya gələsiniz, mənim əməliyyatıma nəzarət edəsiniz. Mustafa bəy razılıq verir və Moskvada atamın cərrahi əməliyyatında iştirak edir. Ən böyük müəmma burasındadır ki, atamın cərrahi əməliyyatını erməni həkimə həvalə edirlər.



Akademik Mustafa Topçubaşov görür ki, erməni həkim tibbi göstəricilərə düzgün əməl etmir, xəstə nahiyəyə müdaxilə əvəzinə, lazım olmayan əməliyyat hərəkətləri edir. Mustafa bəy erməni həkiminin cərrahi əməliyyatına öz etirazını bildirəndə deyirdi ki, mən yeni üsulla işləyirəm, işimə qarışmayın. Bu iş mənə həvalə olunub.

Mustafa bəy bu dəhşətli hadisəni anama danışır. Anam çaşqınlıq içində qalır. Həqiqət odur ki, Mikoyanın göstərişi ilə əməliyyata cəlb olunan erməni həkimi atamın ortadan götürülməsi üçün lazım olanı etməli idi. Hətta Mustafa bəy kimi bütün SSRİ məkanında tanınan hörmətli akademikin fikirlərinə – yanlış, qərəzli cərrahi əməliyyatın aparılmasına etiraz etməsinə belə məhəl qoyan olmayıb. Əməliyyatdan bir müddət sonra atamın vəziyyəti pisləşməyə başlayır və o, 1962-ci il iyulun 30-da 38 yaşında həyatla əbədi vidalaşır. Bu gün də atamın iş qovluğuna baxanda anlayıram ki, xalqa gərəkli belə bir ziyalı erməni "cəllad"ının qurbanı oldu. Çox ağrılı olsa da, demək istəyirəm ki, nənəm Bəxti xanım da erməni həkiminin cinayəti səbəbindən həyatını itirib. Çox təəssüf ki, həmin həkim də cəzasız qalıb...

***– Aydın müəllim, hər bir övlad üçün ata adı, onun isti nəfəsi müqəddəsdir. Sizin "Hər şeyi başa düşmək, lakin bağışlamamaq" adlı kitabınız atanızın həyat və fəaliyyətinə həsr olunub. Bu kitabı yazmaqda məqsədiniz nədir?***

– Atam haqqında yazdığım kitab, əslində, yalnız Nazim Hacıyev və onun ailəsinin başına gətirilən müsibətin xronikası barədə deyil. Bu əsər, eyni zamanda, xalqımızın vətənpərvər övladlarının mənfur erməni daşnaklarının məkrli siyasətinə qurban verilməsinə, böyük nəsillərin, şəcərələrin planlı olaraq məhv edilməsinə həsr olunub. Bu kitabın hər səhifəsini ürək ağrısı ilə yazmışam.

Deyirlər, kişilər ağlamaz. Amma mən deyərdim ki, kişilər ağlayır, onların göz yaşı ürəklərinə sızır. Mən 9 yaşımdan belə bir əzablı ürəyi gəzdirirəm. Atam rəhmətə gedəndə 9 yaşım var idi, qardaşım Fuad isə 5 yaşında idi.

Evimizdəki təlatüm körpə qəlbimizi param-parça etdi. Doyunca atamızın üzünü, gülüşlərini, bizə qayğısını hiss edə bilmədik. Həyatda elə hisslər var ki, onları dilə gətirmək belə mümkün deyil. Övladlarla ataların arasında qırılmaz bağlar olur, biz bu müqəddəs hisslərin burulğanında çox çabaladıq, mən də, qardaşım da...

***– Bu günlərdə Nazim Hacıyevin anadan olmasının 100 illiyi tamam oldu. Ötən illərə boylananda ürəyinizdən nə keçdi?***

– Nazim Hacıyev mənim atam olsa da, eyni zamanda, xalqının vətənpərvər oğludur. Vətən, Torpaq, Azərbaycan məfhumları onun üçün qibləgah idi. Ürəyində, əqidəsində daim Azərbaycan sevgisi yaşadırdı.

Bir məsələni də xüsusi olaraq deməliyəm. Ümummilli lider Heydər Əliyev Azərbaycan KP MK-nın I katibi olandan sonra atamın xatirəsinin əbədiləşdirilməsi ilə bağlı sərəncam imzalayıb. Bakıda və Şəkidə Nazim Hacıyevin adına küçələr var. Şəkinin mərkəzi istirahət klubu, Baş Küngüt kəndindəki tam orta məktəb atamın adını daşıyır.

Bu il 6 iyunda AMEA Şəki Regional Elmi Mərkəzinin və Şəki Ensiklopediyasının təşkilatçılığı ilə Şəkidəki Çingiz Mustafayev adına klubda Nazim Hacıyevin 100 illik yubileyi ilə bağlı xatirə gecəsi keçirildi. Çıxış edənlər atamın xalqımız qarşısındakı xidmətlərindən dərin məmnunluq hissilə bəhs etdilər. Bütün bunlar bizim ailə üçün böyük bir təskinlik oldu.

Atamın Fəxri Xiyabandakı məzarına getdim. Ata-oğul doyunca dərdləşdik. Son olaraq dedim ki, ata, rahat yat. 2020-ci ilin payızında Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyilə Müzəffər Ordumuz doğma Qarabağımızı düşməndən azad etdi! Bu gün üçrəngli bayrağımız ölkəmizin bütün ərazisində dalğalanır. Sənin arzuların həyata keçib, ata!

Kaş xalqımızın bu xoşbəxt günlərini atam Nazim Hacıyev öz gözləri ilə görəydi! Amma onu bilirəm ki, atamın ruhu şaddır!

***Kəmalə ABDİNOVA***
***XQ***

Sosial xəbərlər

## Azərbaycanlı oftalmoloqlar Bayburt konfransında

**Türkiyə Cümhuriyyəti Oftalmoloji Dərnəyi Bayburt Universitetində Azərbaycan, Qırğızıstan və Özbəkistan mütəxəssislərinin də iştirakı ilə konfrans keçirib. Elmi məclisdə türk dünyası ölkələrində oftalmologiya sahəsində əldə edilən nailiyyətlər, tədqiqatların nəticələri və innovasiyalar müzakirə edilib.**




Azərbaycandan həkim-oftalmoloq Yazgül Abdıyeva, Türkiyədən professor Süleyman Kaynak və həkim Bekir Sitkinin moderatorluğu ilə aparılan müzakirələrdə giriş nitqləri ilə Türkiyə Cümhuriyyəti Oftalmoloji Dərnəyin rəhbəri Önər Gelişkən, dərnəyin fəxri sədri Sunay Duman, baş katibi Züleyxa Yalnız Akkaya, tədbirin ev sahibi, millət vəkili Orxan Ateş, TOD-un baş katibi Kıvanç Güngör və Bayburt Universitetinin rektor köməkçisi Əli Savaş Bülbül çıxış ediblər.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin elmi-məlumat, tədris və təşkilati-metodiki bölməsinin müdiri, Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədr müavini, TCOD-un fəxri üzvü Yazgül Abdıyeva konfransda məruzə ilə də çıxış edib. O, Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin inkişaf tarixi, dünəni və bu günündən söz açıb, Milli Oftalmologiya Mərkəzinin fəaliyyətindən, səyyar klinikanın köməyi ilə görülən işlərdən geniş bəhs edib.

Sonda iştrakçılara sertifikatlar təqdim olunub və Bayburt şəhərində yerləşən Bakı muzeyinə səyahət təşkil edilib.

## "DOST müfəttiş" layihəsi təqdim olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Azərbaycan Sahibkarlar Konfederasiyasının birgə təşkilatçılığı ilə "Əmək və məşğulluq münasibətlərinin tənzimlənməsi, "DOST müfəttiş" layihəsinin təqdimatı" mövzusunda sahibkarlarla görüş keçirilib. Toplantıda işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən şirkətlərin əməkdaşları üçün işçi icazələrinin alınması sahəsində görülən işlər müzakirə edilib. "Əmək və məşğulluq" altsisteminin yenilikləri təqdim olunub.**



Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev Böyük qayıdış proqramı üzrə öz torpaqlarına qayıdan əhalinin məşğulluğunun təmin edilməsində özəl sektorun xüsusi rolunu vurğulayıb, iş adamlarını dövlət-özəl dialoqu çərçivəsində yaradılan yeni e-platformanın imkanlarından yararlanmağa dəvət edib. Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev son illər əmək və məşğulluq sahələrində aparılan islahatları, bu islahatlar prosesində sosial tərəfdaş olaraq Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə fəal əməkdaşlığın həyata keçirildiyini qeyd edib. O, altsistemin əmək sahəsində bütün münasibətlərin e-platformaya keçidinə imkan verdiyini, yeni "DOST Müfəttiş" layihəsinin işəgötürənlər üçün əhəmiyyətini diqqətə çatdırıb.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Vəli Quliyev bildirib ki, ƏMAS-da tətbiq edilən yeniliklər barədə mütəmadi olaraq işəgötürənlərə onlayn və offlayn olaraq təlimlər keçirilir, habelə işəgötürənlərin ƏMAS-ın təkmilləşdirilməsi ilə bağlı təklifləri də operativ şəkildə nəzərə alınaraq diqqətdə saxlanılır. Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Sadiq Əliyev, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın İdarə Heyətinin sədri Elnur Səfərli çıxışlarında qeyd ediblər ki, layihənin məqsədi iş yerlərində əmək qanunvericiliyinin düzgün şəkildə tətbiqində, əmək münasibətlərinin qanunvericiliyə uyğun qurulmasında işəgötürənlərə dəstək olmaqdır.

## "E-sosial.az" portalı beynəlxalq mükafat alıb

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "e-sosial.az" portalı "Communitas" beynəlxalq təşkilatının (ABŞ) təşkil etdiyi "Communitas Awards" müsabiqəsində yüksək qiymət alıb.***

Müsabiqənin saytında bu barədə, habelə DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi haqqında məlumat verilib. Həmçinin saytda portala və pensiya kalkulyatoruna dair posterlər də təqdim edilir. Bundan əvvəl də e-sosial.az portalı bir sıra beynəlxalq mükafatlara layiq görülüb.

## Bu il 400-dən çox imtiyazlı şəxs müalicəyə göndərilib

***Sosial Xidmətlər Agentliyi bu il 417 imtiyazlı şəxsi sanator-kurort və müalicə mərkəzlərinə göndərib.***

Onlar xəstəliklərinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasındakı "Darıdağ" Arsenli Su Müalicəxanası, "Duzdağ" Fizioterapiya Mərkəzi və Naxçıvan Sağlamlıq Mərkəzində, "Ulusu" Sanatoriyasında, "Belvedere Baku" Hotel və Şahdağ Guba & Truskavets müalicə mərkəzlərində müalicə kursu keçiblər. Həmin şəxslər sırasına əlillər, həmçinin müharibə ilə əlaqədar əlil olanlar, şəhid ailələrinin üzvləri daxildir.

## Azadlığa çıxmış məhkumlara diqqət və qayğı

***Sosial Xidmətlər Agentliyi penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə adaptasiyası məqsədilə növbəti görüş keçirib.***

Ədliyyə Nazirliyi ilə 17 saylı Cəzaçəkmə Müəssisəsində təşkil edilən tədbirdə agentliyin fəaliyyət istiqamətləri, məhkumların sosial mühitə uyğunlaşdırılması, hüquq və azadlıqlarının qorunması sahəsində görülən işlər barədə məlumat verilib. Sosial xidmətə ehtiyacı olan, habelə cəza çəkməkdən azad olan şəxslərin sosial reabilitasiyası və adaptasiyası tədbirləri diqqətə çatdırılıb. Həmin şəxslərin ailələrinə səfərlərin təşkil olunduğu, onlarla aparılan qiymətləndirmənin nəticəsindən asılı olaraq müvafiq xidmətlərə cəlb olunduqları bildirilib, sosial-psixoloji reabilitasiyanın təşkilinə dair təqdimatlar edilib.

Tədbirdə məhkumluqdan azad olunmasına üç ay qalmış daha bir qrup şəxsin anket sorğusu əsasında qiymətləndirilməsi aparılıb. Məhkumluqdan azad olunduqdan sonra onların sosial-psixoloji yardım xidmətinə cəlb edilməsi nəzərdə tutulur.

***Zərifə HÜSEYNOVA***
***XQ***

“Xalq qəzeti”nin qonaqları

# Borçalı torpağı soydaşlarımızın əzəli və əbədi vətənidir

## Gürcüstan parlamentinin keçmiş deputatı, ictimai xadim Ramiz Bəkirovla müsahibə

**70 il tarixin gedişini dəyişməyə çalışmış sovet imperiyası dağılandan sonra oxşar tale yaşayan Azərbaycan və Gürcüstanda baş verən proseslər, daxili və xarici vəziyyətin oxşarlığı, geosiyasi maraqların üst-üstə düşməsi və digər amillər iki ölkə arasında tarixi qonşuluq münasibətlərinin daha da möhkəmlənməsinə zəmin yaratdı. Dövlətlərarası diplomatik münasibətlər qurulandan sonra regional və qlobal məsələlərdə hər iki ölkə eyni mövqedən çıxış etməyi davamlı siyasətə çevirdilər. Redaksiyamızın qonağı Gürcüstan parlamentinin keçmiş deputatı, ictimai xadim Ramiz Bəkirov ilə söhbətimiz bu mövzuda oldu:**



– Ondan başlayaq ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Gürcüstana rəsmi səfəri zamanı Azərbaycan və Gürcüstanın böyük tarixi əlaqələrinin olduğunu xüsusu vurğulamış, bu münasibətlərə xüsusi əhəmiyyət verdiyini belə ifadə etmişdir: Gürcüstan bizim üçün yaxın qonşu və dost ölkədir. Çox böyük tarixi əlaqələrimiz var.

Müasir dövrdə bu dostluğun təməllərini ümummilli lider Heydər Əliyev və Gürcüstanın keçmiş prezidenti Eduard Şevardnadze qoydular və hər iki lider “Qafqaz evi”nin yaranmasına və daim qorunmasına çalışdılar. Təəsüf ki, bədnam erməni qonşularımızın təçavüzkar siyasəti bu münasibətlərin inkişafına uzun illər maneçilik törətdilər. Amma ölkələrimiz arasında münasibətlərin pozulmasına xalqlarımızın dünya şöhrətli liderləri Heydər Əliyev və Eduard Şevardnadze imkan verməldilər və ömürlərinin sonuna kimi də bu ideyanın müdafiəçiləri oldular. Çox şükür ki, onların qoyduğu bu strateji yol sonralar da uğurla davam etdirildi və bu gün də öz bəhrəsini verməkdədir.

***– Sözünüzün qüvvəti, ötən əsrin 90-cı illərində ümummilli lider Heydər Əliyevin məqsədyönlü siyasəti iki ölkə arasındakı münasibətləri keyfiyyətcə yeni mərhələyə gətirirdi...***

– Haqlısınız, təməlləri o vaxtlarda qoyulan bu münasibətlər bu gün ən yüksək səviyyədədir. Ulu öndərin anadan olmasının 101-ci ildönümü ilə bağlı bu ilin may ayında Gürçüstanın bir qrup ziyalısının Bakıya səfəri oldu. Əməkdar jurnalist Şahismayıl Şəmmədoğlunun müəllifi olduğu “Heydər Əliyev – Gürcüstan” kitabının və onun ssenari müəllifliyi ilə çəkilən “Dostluğun siması” sənədli filminin AMEA-da və Atatürk Mərkəzində yüksək şəkildə təqdimatı keçirildi. AMEA-nın prezidenti akademik İsa Həbibbəyli gürcü ziyalılarının Ulu öndər haqqındakı ali fikirlərinin iki ölkə arasında bugünkü münasibətlərin göstəricisi olduğunu bildirərək, kitabın və sənədli filmin əhəmiyyətini yüksək qiymətləndirdi. Həm kitab, həm də film Azərbaycan–Gürcüstan dostluq əlaqələrinin tarixi haqqında dəyərli nümunədir.

Doğrudan da, ötən əsrin 90-cı illərində Ümummilli liderin məqsədyönlü siyasəti nəticəsində iki ölkə arasındakı münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, Qafqazda sülh və sabitlik bərqərar oldu. Nə qədər ki, bəşəriyyət mövcuddur, Gürcüstanda yaşayan azərbaycanlılar Ulu öndərə minnətdarlıq borcunu unutmayacaq, yaradıcı insanlar onun haqqında daim yazıb yaradacaq və iki xalq arasındakı dostluq münasibətlərinin qorunub saxlanmasını özlərinin həyat amalı biləcəklər.

Çox çətin, mürəkkəb dönəmdə Heydər Əliyev təkcə Azərbaycan üçün deyil, bütövlükdə, Qafqaz üçün əhəmiyyətli və möhkəm təməllər formalaşdıra bildi. Ümummilli liderin Gürcüstana olan səmimi münasibətini təkcə orada yaşayan azərbaycanlılar yox, gürcü xalqı da yüksək dəyərləndirir. Onun ideyaları ilə gerçəkləşən birgə layihələr təkcə Azərbaycanın deyil, Gürcüstanın da gələcək inkişafına təkan verdi. Bakı–Tbilisi–Qars dəmiryol xətti və Bakı–Tbilisi–Ceyhan neft kəməri kimi meqalayihələr iqtisadi əməkdaşlığımızı gücləndirdi, hamımıza yeni həyat, yüksək rifah bəxş etdi. Yaxşı yadımdadır, məhz Ulu öndərin təkidi ilə Bakı–Ceyhan boru kəmərinin adına “Tbilisi” sözü əlavə edidi.

***– Yeri gəlmişkən, sizin Heydər Əliyevlə görüşünüz olub, hətta Ulu öndər sizi şəxsən qəbul edib.***

– Biz onun necə böyük siyasətçi, dövlət xadimi olduğunu bilirdik. Düşünürdük ki, müstəqilliyin ilk illərində Azərbaycanı düşdüyü bəladan yalnız dərin dövlətçilik təcrübəsi olan şəxsiyyət xilas edə bilər. Gürcüstanda Ulu öndərlə görüşmək istəyən çox adam var idi. Mən də çox istəyirdim ki, xalqımızın böyük oğlu ilə görüşüm, onunla çanlı təmas həyatımın unudulmaz xatirəsinə çevrilsin. Zaman keçdi və bu istəyim reallaşdı.

Sovet İttifaqı dağıldıqdan sonra Gürcüstan da dövlət müstəqilliyini bərpa etdi. O zaman “Gürcüstan Vətəndaşlar İttifaqı”nın namizədi kimi, 1995-ci ildə ölkə parlamentinin deputatı seçildim. Gürcüstanın ozamankı deputatları olan İsaq Novruzov və Hidayət Hüseynov, eləcə də AzTV-nin Gürcüstan üzrə müxbiri Şahismayıl Məmmədov 1996-cı il yanvarın 6-da Bakıda Prezident Sarayında Heydər Əliyevlə görüşdük. Bir saatdan çox davam edən söhbətdə Prezident Heydər Əliyev bizi böyük məsuliyyətlə, diqqətlə dinlədi, qayğı və problemlərimizlə ətraflı maraqlandı.

***– Təbii ki, bu sıradan bir görüş olmayıb, yadınızda qalanları necə xatırlayırsınız?***

– Bəli, bu tarixi bir görüş idi. Ulu öndər Heydər Əliyevin tövsiyələri və dedikləri həyat dərsi idi və bizi öz yürd-yuvamıza daha yaxından bağladı. O böyük insan dedi ki, sizin Gürcüstan parlamentinin üzvü olmağınız məni çox sevindirir. Gürcüstanda yaşayan azərbaycanlılar unutmamalıdırlar ki, bu ölkə həm də sizin Vətəniniz, dövlətinizdir. Bu dövlətin qurulmasında, möhkəmlənməsində və inkişafında gürcü qardaşlarla çiyin-çiyinə çalışmalısınız. Gərək Gürcüstanda yaşayan azərbaycanlılar öz zəka və bacarıqları ilə öndə olsunlar.

Görüşdə Azərbaycan–Gürcüstan əlaqələrinin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi məsələsi də diqqət mərkəzində oldu. Müstəqil Azərbaycanın lideri Heydər Əliyev bir sıra irimiqyaslı regional enerji layihələrindən, o cümlədən Azərbaycan neftinin Avropaya nəqli üçün bu kəmərin Gürcüstandan keçməsindən və bunun orada yaşayan azərbaycanlılar üçün də böyük səmərəsindən danışdı. Ulu öndər böyük məhəbbətlə qeyd etdi ki, Gürcüstanda bizim yüz minlərlə soydaşımız var. Mən onların taleyinə biganə qala bilmərəm.

Yadımda qalan daha bir ümdə məsələ də sevimli rəhbərin Gürcüstanda Azərbaycan səfirliyinin açılması təklifimizə müsbət cavabı oldu. Sonda nümayəndə heyəti soydaşlarımız adından Heydər Əliyevi Gürcüstana dəvət etdi.

***– Dəvətiniz qəbul olundumu?***

– Azərbaycanın çox gərgin günlər yaşadığı bir dövrdə Heydər Əliyev bizim bu dəvətimizə nəinki biganə qaldı, hətta bu görüşdən 2 ay keçməmiş 1996-cı il martın 8–9-da Gürcüstana səfərə gəldi. Bu, Gürcüstan azərbaycanlılarının həyatında çox mühüm əhəmiyyət kəsb edən tarixi bir səfər oldu. Səfərin ən yaddaqalan və əhəmiyyət kəsb edən hissəsi Z.Poliaşvili adına Gürcüstan Akademik Dövlət Dram Teatrında Prezident Heydər Əliyevlə soydaşlarımızın görüşü idi. Gürcüstan Prezidenti Edurd Şevardnadzenin çıxışı zamanı azərbaycanlıları “diaspor” adlandırmasına Azərbaycan rəhbəri Heydər Əliyev çox ədalətli və diplomatik baxımdan sərrast cavab verdi. Ulu öndər bildirdi ki, Gürcüstanda yaşayan azərbaycanlılar diaspor deyil, onlar bu ölkənin aborigen xalqı, bu torpağın vətəndaşlarıdırlar. Onlar bizim soydaşlarımızdırlar.

E.Şevardnadze isə diaspor ifadəsini, sadəcə olaraq, dilinə yaxşı yatdığı üçün işlətdiyini bildirirdi və Ulu öndərlə razılaşdı.

Heydər Əliyev elə o görüşdə Gürcüstanda yaşayan azərbaycanlı soydaşlarımıza müraciətlə bir daha deyirdi: Sizin ulu babalarınız, Azərbaycan və gürcü xalqları yadellilərə qarşı birgə mübarizə aparıblar, öz torpaqlarını müdafiə ediblər. Bu dostluq bu gün də davam edir. Ona görə də bu ölkə sizin doğma torpaqlarınızdır. Siz öz doğma Vətəninizdə, torpaqlarınızda yaşayırsınız.

Ulu öndərin bu çıxışı onun doğma xalqına böyük sevgisinin yüksək təzahürü idi və bizi öz Vətənimizdə daha möhkəm dayanmağa səslədi. Gürcüstanda yaşayan azərbaycanlılar Ulu öndərin bu mövqeyini hər zaman minnətdarlıq hissi ilə xatırlayacaqlar. 1996-cı il martın 8-də imzalanan “Azərbaycan Respublikası ilə Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında müqavilə” ölkələrimiz arasında strateji tərəfdaşlığın təməlini qoyan sənəd oldu.

***– Ramiz müəllim, şübhəsiz, bu möhkəm təməlin yaradılmasının nəticəsidir ki, Azərbaycan–Gürçüstan münasibətləri ilbəil güclənir, inkişaf edir. Bəs, bu gün Azərbaycanda baş verənlər Gürcüstandan necə görünür?***

– Azərbaycanla Gürcüstanı mehriban qonşuluq və tarixi dostluq münasibətləri, siyasi, iqtisadi, humanitar və digər sahələrdə strateji tərəfdaşlıq əlaqələri birləşdirir. Digər tərəfdən, Azərbaycanın qonşu ölkələrlə bağlı siyasətində Gürcüstanla münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan öz enerji resurslarının Avropa bazarlarına çatdırılmasında, eyni zamanda, Şərqdən Qərbə gedən yüklərin daşınmasında Gürcüstan mühüm tranzit rol oynayır. Həqiqət budur ki, Azərbaycanla Gürcüstanı təkcə iqtisadi amillər deyil, həm də tarixi köklər birləşdirir. Azərbaycan–Gürcüstan dostluğunun çox qədim tarixi var və bu iki ölkə təkcə qonşu və dost deyil, bu gün həm də strateji tərəfdaşdır. Amma məsələnin çox incə və önəmli bir tərəfi də var: bu gün dünyadakı kimi, Qafqazda da müəyyən maraqlar toqquşur, yeni böyük dövlətlərin bu regionda mənafeyindən söhbət gedir.

Əslində, tarixən də belə olub. Amma indi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev elə bir fövqəlnümunə göstərdi ki, bu, çoxları üçün gözlənilməz, həm də ibrətli dərs oldu. Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə illərlə qəsdən və süni şəkildə uzadılan nəhəng bir problem birdəfəlik yoluna qoyuldu. Diqqət edin: ümumiyyətlə, Qarabağ məsələsinin gündəmdən çıxarılması böyük tarixi uğurdur. İndi nəyin ətrafında oyun quracaqlar?!

***– Amma yenə nə isə axtarıb tapmağa çalışırlar...***

– Yox, nə qədər axtarsalar da ciddi bir ilişmə yeri tapa bilməyəcəklər. Son illərin gedişatına diqqət edəndə gördüyümüz və dirəndiyimiz bir reallıq olub: Qarabağ məsələsi bu regionda seperatçı qüvvələri şirnikləndirmək, faydalandığı vasitə kimi şovinist ideyaları canlandırmaq üçün ciddi bir vasitə idi. Amma Prezident İlham Əliyev bu təsir mexanizmini onların əllərindən qətiyyət və məharətlə çıxardı. Bununla da region yeni təhlükələrdən sığortalanmış odu. İndi həmin ölkələr narahatdırlar ki, mühüm bir təsir amilini itiriblər. Azərbaycan rəhbərliyi elə bir ağılla siyasət yürütdü ki, Qarabağ problemi birdəfəlik ortadan qalxdı.

İndi də Azərbaycana hansısa sanksiyalardan danışırlar. Amma buna əsas tapa bilməyənlər Fransanın, Hindistanın, nə bilim, daha kimlərin əli ilə Ermənistana kömək göstərirlər. Bəla burasındadır ki, bu “çanıyananlıq” sosial məsələlərin həllinə yox, silahlandırmaya yönəlib. Yaxçı ki, erməni cəmiyyəti artıq anlamaq istəyir ki, bu “himayə” onları heç vaxt xöşbəxt edəsi deyil, bu cəhdlər 30 il olduğu kimi, yenə uğursuzluğa məhkumdur. Ötən dönəmdə nə qədər insan yürd yuvasından didərgin düşdü, öldü... nəyin naminə?

***– Sonda oxucularımıza nə deyərdiniz?***

– Ölkələrimiz arasında uğurlu regional əməkdaşlıq münasibətləri çərçivəsində irimiqyaslı qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin, Bakı–Tbilisi–Ceyhan neft boru kəməri, Bakı–Tbilisi–Ərzurum qaz boru kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu və digər kommunikasiyaların reallaşdırılması bölgədə sülhə və sabitliyə xidmət edir. İki ölkə arasında münasibətlərə nəzər salarkən, humanitar sahədə əməkdaşlığı xüsusilə də Heydər Əliyev Fondu tərəfindən Gürcüstanda həyata keçirilən çoxsaylı layihələri xüsusi vurğulamaq lazımdır.

Azərbaycan və gürcü xalqları əcdadlarımızın yaratdıqları təmasları qoruyub saxlamalı və daha da irəli apararaq gələcək nəsillərə ötürməliyik. Eyni zamanda, əl-ələ verib “Qafqaz evi”nin yaranmasına çalışmalıyıq.

***– Vaxt ayırıb redaksiyamızın qonağı oldunuz, maraqlı söbbətə görə sağ olun. Redaksiyamızın səmimi salamlarını Gürcüstandakı söydaşlarımıza da yetirin.***

***Namiq QƏDİMOĞLU***
***XQ***

# TDT-nin Şuşa Zirvəsi xarici mediada

**Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü xarici medianın diqqət mərkəzində olub.**

Müxtəlif aparıcı media qurumlarında yayımlanan xəbərlərdə Zirvə görüşünün Şuşa şəhərində təşkil olunmasının, Qarabağ Bəyannaməsinin qəbul edilməsinin tarixi əhəmiyyət daşıdığı vurğulanıb.

Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin aparıcı xəbər agentlikləri, televiziya kanalları və mətbu nəşrləri Zirvə görüşünə xüsusi yer ayırıb. “Sabah” qəzeti Şuşa Zirvə görüşü barədə “Bizim gücümüz birliyimizdədir” sərlövhəli məlumat verib. Materialda Azərbaycan Prezidenti İlham Əliyevin XXI əsrin Türk dünyasının inkişaf və tərəqqi dövrünə çevrilməsinin zəruriliyi haqqında söylədiyi fikirlər sitat gətirilir.




Türkiyənin NTV telekanalı hazırladığı reportajda Türkiyənin xarici işlər naziri Hakan Fidanın tezliklə Türk dünyasının vahid əlifbasını yaratmaq çağırışına diqqət çəkib.

DHA və Anadolu xəbər agentlikləri Türkiyənin vitse-prezidenti Cevdet Yılmazın Şuşadakı çıxışı barədə ətraflı məlumat veriblər.

“Hürriyyət” qəzetinin yazılarında Ankaranın Ermənistanla dialoqa dair mövqeyi, vahid türk əlifbasının yaradılması, Türkiyənin Ukraynada müharibəyə son qoymaq səyləri və ŞKTC xalqının hüquqlarının təmin edilməsinin vacibliyinə diqqət yetirilir.




ŞKTC mediası da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün Türk dünyasında birlik və əməkdaşlıq baxımından əhəmiyyətindən yazıb.

Şimali Kiprin BRTK telekanalı ŞKTC Prezidenti Ersin Tatar və Türk Kiprin xarici işlər naziri Tahsin Ərtoğruloğlunun Şuşadakı çıxışları barədə oxuculara məlumat verib, Azərbaycanın mədəniyyət paytaxtından reportajlar hazırlayıb, canlı yayımlar edib. “Halkın Sesi” və “Kıbrıs Hakikat” qəzetləri Şuşa Zirvə görüşünün mövzusu ilə bağlı bir sıra xəbərlər dərc edərək, Kipr türklərinin lideri və ölkənin xarici işlər nazirinin rəhbərinin Şuşada çıxışlarından ətraflı bəhs edib.

TDT-nin Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü Mərkəzi Asiya ölkələrinin mətbuatında da geniş işıqlandırılıb.

“Tengrinews.kz” portalı Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Zirvə görüşündə unikal sivilizasiyanın və milli dillərin qorunub saxlanmasının vacibliyi, eləcə də süni intellektdən istifadə etməklə “Böyük türk dili modeli”nin hazırlanması təklifi ilə bağlı səsləndirdiyi bəyanatları dərc edib. “Kazinform” dövlət agentliyinin yaydığı xəbərdə Şuşada keçirilən TDT-nin qeyri-rəsmi Zirvə görüşünün yekunlarına dair “Qarabağ Bəyannaməsi”nin qəbul olunmasının önəmi vurğulanıb.

Özbəkistanın Milli İnformasiya Agentliyi “UzA” TDT-ə üzv ölkələrin nümayəndə heyətləri rəhbərlərinin Azərbaycan Prezidentinin müşayiəti ilə Şuşa şəhərində aparılan quruculuq işləri ilə tanışlıq səfəri barədə məlumat yayıb. “Gazeta.uz” internet nəşri isə yazıb ki, Şuşada keçirilən Zirvə görüşündə çıxış edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın prioritetləri kimi ticarət və nəqliyyat marşrutlarının inkişaf etdirilməsini, alternativ enerji mənbələrindən istifadəni və iqlim dəyişikliyi ilə mübarizəni göstərib.

Qırğızıstan milli xəbər agentliyi “Kabar” bildirib ki, Qırğızıstan Prezidenti Sadır Japarov işgüzar səfərinin ilk günü, iyulun 5-də Türk Dövlətləri Təşkilatına üzv ölkələrin rəhbərləri ilə birlikdə Şuşada tikilməkdə olan mərkəzi məscidə və şəhər mərkəzindəki yeni məhəlləyə baxış keçirib. Xəbərdə əlavə edilib ki, burada şəhərin tarixi görkəmini bərpa etmək

Fələstin Dövlətinin WAFA xəbərlər agentliyi və “Əl Qüds” qəzeti Zirvə görüşündə qəbul edilən “Qarabağ Bəyannaməsi”ndən yazıb. Yazılarda TDT-nin paytaxtı Şərqi Qüds olmaqla müstəqil Fələstin Dövlətinin beynəlxalq səviyyədə tanınması məsələsinə dəstək nümayiş etdirdiyi vurğulanıb. Diqqətə çatdırılıb ki, TDT, həmçinin Qəzzada dərhal və daimi atəşkəsə, humanitar yardımların maneəsiz çatdırılmasının təmin olunmasına çağırış edib.

İsveçin “CawaMedia” agentliyinin saytında əməkdaşlığı beynəlxalq ekspertlərin diqqətini çəkən Türk Dövlətləri Təşkilatına həsr olunmuş məqalə dərc olunub. “Türk ölkələri qlobal ticarəti dəyişir və gələcəyə sərmayə qoyurlar” sərlövhəli məqalədə qədim Böyük İpək Yolu dövründə kök salmış və Beynəlxalq Türk Akademiyası ilə birgə üzv ölkələr arasında əlaqələrin möhkəmləndirilməsi, dialoqun, mədəni mübadilənin və strateji tərəfdaşlığın təşviqi üçün müasir platformaya çevrilən Türk Dövlətləri Təşkilatında birləşən türk xalqlarının ortaq irsindən bəhs edilir.

***XQ***

# “İlham Əliyevin ekoloji siyasəti. Dayanıqlı inkişaf və yaşıl dünya”



**İyulun 8-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasında “İlham Əliyevin ekoloji siyasəti. Dayanıqlı inkişaf və yaşıl dünya (2003-2023)” üççildliyinin təqdimatı olub.**

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli tədbiri açaraq üççildliyin COP29 strategiyasına və “Yaşıl dünya naminə həmrəylik ili”nə mühüm töhfə olduğunu bildirib. Kitabda Prezident İlham Əliyevin ekoloji siyasətinin ana xəttini təşkil edən “yaşıl iqtisadiyyat”a dair çıxışları, görüşləri və seçilmiş iqtibasları xronoloji ardıcıllıqla verilib.

Sonra Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev çıxış edərək kitabın mahiyyətindən danışıb, nəşrin ərsəyə gəlməsində əməyi keçənlərə təşəkkürünü bildirib.

Daha sonra nəşrin redaktoru, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova və digərləri təqdim olunan kitabın məziyyətlərindən danışıb, nəşri mühüm mədəni hadisə kimi dəyərləndiriblər.

***Qabil YUSİFOĞLU***
***XQ***

Əbdüləzəl Dəmirçizadə – 115

# Milli dilçiliyimizin "Dədə Qorqud"u

**Görkəmli dilşünas alim, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Dövlət mükafatı laureatı, filologiya elmləri doktoru, professor Əbdüləzəl Dəmirçizadə 115 il əvvəl – 1909-cu ildə Şəkidə anadan olub. Erkən yaşlarından şeir və hekayələr yazsa da, tənqidi məqalə və bədii oçerklər müəllifi kimi fəaliyyətə başlasa da, sonra görkəmli dilçi alim kimi Azərbaycan elminə adını əbədi həkk edib.**



Gənc Əbdüləzəl ADU (indiki BDU) pedaqoji fakültəsində Bəkir Çobanzadə, Əbürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Abdulla Şaiq kimi tanınmış alim və yazıçılardan dərs alıb və elmə ömürlük bağlanıb. Özü də müəllimləri kimi, Azərbaycan dilçiliyinə misilsiz töhfələr verib.

Görkəmli elm xadiminin yubileyi münasibətilə Mirzə Fətəli Axundov adına Milli Kitabxanada onun həyat və fəaliyyətini əks etdirən "Professor Əbdüləzəl Dəmirçizadə – 115" adlı geniş kitab sərgisi ilə tanış olanların gözləri qarşısında bir daha böyük alimin işıqlı obrazı canlanır. Sərgidə alimin fenomenal araşdırmaları, fundamental elmi tədqiqatları, sanballı monoqrafiyaları, eyni zamanda, haqqında yazılmış Azərbaycan və rus dillərində çoxsaylı ədəbiyyat nümayiş olunur.

Əbdüləzəl Dəmirçizadə özü haqqında yazırdı: "Mən ədəbiyyat, incəsənət və elm sahəsində bir sıra məşhur şəxsiyyətlərlə – Səməd Vurğun, Süleyman Rüstəm, Əbülhəsən, Sabit Rəhman, akademik Həmid Araslı, professor Cəfər Xəndan, Xalq rəssamı Salam Salamzadə və başqaları ilə yoldaş olaraq təhsil almışam… Dilçilik sahəsində əsl tədqiqat aparmaq zərgərlikdir".

Elm sahəsində istedadlı alim kimi tanınan, Azərbaycan dilçiliyinin işlənilməmiş sahələrini (fonetika, orfoepiya, etimologiya, üslubiyyat, dil tarixi və s.) araşdırmış alimin "Azərbaycan ədəbi dili tarixi xülasələri", "M.F.Axundov dil haqqında və Axundovun dili", "Azərbaycan dilinin tarixi", "Azərbaycan ədəbi dilinin inkişaf yolları", "Kitabi-Dədə Qorqud" dastanının dili", "Azərbaycan dilinin tarixi qrammatikası" və s. kitabları yalnız Azərbaycan deyil, türk dilçiliyi xəzinəsini də zənginləşdirən nümunələr hesab edilir.

Alimin etimologiya sahəsində araşdırmalarının bəhrəsi olan "50 söz" əsəri (Bakı, 1968) dilimizin tarixini öyrənənlər, tarixçilər, geniş oxucu kütləsi üçün bu gün də öz dəyərini saxlayan kitabdır. Dilçi kadrların yetişməsi sahəsində də Əbdüləzəl Dəmirçizadənin böyük xidmətləri olub. Belə ki, onun rəhbərliyi altında 70-dən çox elmlər namizədi və elmlər doktoru yetişib. Neçə-neçə dilçi alimin müdafiəsində opponentlik edib.

Tanınmış alim və ziyalıların onun haqqında dedikləri də Əbdüləzəl Dəmirçizadənin görkəmli elm adamı olduğunun sübutudur.

**Qəzənfər Kazımov:** "Professorun şəxsiyyətinə və əsərlərinə nəzər saldıqda belə bir təsəvvür yaranır ki, elə bil, Azərbaycan dili onun şəxsində öz böyük tədqiqatçısını gözləyirmiş və elə bil, professor Dəmirçizadə bunu duymuş, bu duyğu ilə hər tərəfə qol-qanad açmış, onun ilkin ehtiyaclarını öz zəhmət və istedadı, yuxusuz gecələri hesabına ödəməyi özünə borc bilmişdir".

**Zahid Xəlil:** "Ə.Dəmirçizadənin elm cəbhəsindəki sonrakı inkişafı onun bədii yaradıcılığı ilə çox əlaqədardır. O, Azərbaycan dilinin qanun və üslublarını, daxili inkişaf dinamikasını bilməzdən əvvəl – bədii yaradıcılıqla məşğul olarkən – onu dərindən hiss etmişdir. Bu təbiidir. Çünki hiss bilikdən müqəddəmdir; həqiqəti hiss etməyənlər onu başa düşə bilməz, dərk edə bilməzlər".

**Paşa Əfəndiyev:** "Onun aramla, səbr və böyük həvəslə oxuduğu mühazirələrin sədaları indi də qulağımdadır. Mühazirələrin müəyyən hissəsini yazdırır və sonra da izah edirdi. O zaman Azərbaycan dilinin tarixinə dair, demək olar ki, çap materialı yox idi. Biz xüsusilə Əbdüləzəl müəllimin "Dədə Qorqud" dastanlarının dilinə aid olan mühazirələrini, demək olar ki, əzbərləmişdik. Dastandan gətirilən uğurlu misallar bizə eyni zamanda dastanın özünü öyrənməyə kömək göstərirdi. Əbdüləzəl müəllim kafedra müdiri kimi "Kitabi-Dədə Qorqud"dan ixtisas kursu da açmışdı".

Sonda əlavə edək ki, böyük alim İkinci Dünya müharibəsi illərində, Dədə Qorqud dastanları əsasında "Dədə Qorqud" librettosu yazıb və milli operamızın banisi Üzeyir bəy Hacıbəyli bu əsərə baxdıqdan sonra müəllifi təbrik edib.

Elə onun özünü də söz-sənət dünyamızın Dədə Qorqudu adlandırmaq olar.

***Ə.DOSTƏLİ***
***XQ***

# Nəğməli "İpək yolu"nun son akkordları

**Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətin birgə təşkilatçılığı ilə keçirilmiş üçgünlük "İpək yolu" XIII Beynəlxalq Musiqi Festivalı uğurla başa çatıb.**




Festival çərçivəsində, Rusiya, İndoneziya, Hindistan, TÜRKSOY ölkələrindən gəlmiş rəqs və musiqi qrupları, eləcə də Azərbaycanın tanınmış incəsənət ustaları yerli sakinlər və şəhərin qonaqları qarşısında çıxışlar ediblər. İyulun 7-də axşam "Marxal" kompleksinin Yay Teatrında festivalın təntənəli bağlanış mərasimi olub.

Mərasimdə Fikrət Əmirov adına Əməkdar Kollektiv – Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı və Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri tamaşaçılar qarşısında geniş konsert proqramı ilə çıxış edib. Konsert Azərbaycanın görkəmli musiqi xadimləri, bəstəkarlar Süleyman Ələsgərov və Şəfiqə Axundovanın 100 illik yubileylərinə həsr edilib.

Konsert orkestrin ifasında Şəfiqə Axundovanın "Gəlin qayası" operasından "Cəngi" rəqsi ilə başlayıb. Əməkdar artistlər xanəndə Almaz Orucovanın, Xəyyam Məmmədovun (kamança), Çinarə Mütəllibovanın (qanun), solistlər Vəfa Vəzirova, Nurlana Abdullayeva, Taleh Yahyayev, Səbinə Ərəbli, Sərxan Bünyadzadə və Zabitə Alıyevanın təqdim etdikləri bəstəkar və xalq mahnıları, rəqqasların şux və oynaq rəqsləri tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.

Sonra Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov festivalın keçirilməsində əməyi olan bütün qurumlara minnətdarlığını bildirib. Mahnı və Rəqs Ansamblının bədii rəhbəri və dirijoru, Xalq artisti, Əməkdar incəsənət xadimi, Şəkinin fəxri vətəndaşı Ağaverdi Paşayevə, həmçinin bayramda fəal iştirak edən qurumlara festivalın simvolu təqdim edilib. Azərbaycanın TÜRKSOY təşkilatındakı nümayəndəsi Elçin Qafarlı tərəfindən festivalın təşkilatçı qurumlarının rəsmilərinə və ansamblın rəhbərinə xatirə hədiyyələri verilib.

"İpək yolu" XIII Beynəlxalq Musiqi Festivalının bağlanış mərasimi atəşfəşanlıqla başa çatıb.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

**Şəki**

# Akademikin çoxcildliyinin 7-ci kitabı

**Akademik, Xalq yazıçısı Kamal Abdullanın əsərlərindən ibarət çoxcildliyinin növbəti kitabı işıq üzü görüb. Yeddinci cildə müəllifin son dövrlərdə qələmə aldığı bir romanı, hekayələri, səhnələşdirilmiş, yaxud səhnə həllini gözləyən pyesləri, "Kitabi-Dədə Qorqud" dastanının semantikasından bəhs edən monoqrafiyası, mif və dilin əlaqələrinə dair "Mifolinqvistika" adlı elmi əsəri və həmmüəlliflə – AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyevlə yazdığı "Kitabi-Dədə Qorqud" dastanının qeyri-səlis məntiqlə əlaqəsi barədə əsəri daxil edilib.**

"Kitabi-Dədə Qorqud"da semantik sayrışmalar" bölməsinin əhatə etdiyi esselər müəllifin əbədi "Dədə Qorqud" axtarışlarının davamıdır. Kamal Abdullanın "Yarımçıq əlyazma" ilə başlayan roman yaradıcılığının hələlik finalı kimi özünü göstərən "Laokoon, Laokoon"…(yaxud bir romanın "gerçək" yazılma tarixçəsi)" romanı müəllifin yaradıcılıq emalatxanasında yaşananların xatirəsidir.

Kitabdakı "Mifolinqvistika" bölməsində təqdim edilən mətləblər onu deməyə əsas verir ki, Kamal Abdulla bu addımı ilə, əslində, Azərbaycan dilçilik elmində yeni bir elmi istiqamətin əsasını qoyub.

Yeddinci cildə daxil edilmiş "Kitabi-Dədə Qorqud" və qeyri-səlis məntiq" əsəri Azərbaycan elm tarixində xüsusi yeri olan dahi alim Lütfü Zadənin qeyri-səlis məntiqinin ədəbi-bədii əsərə tətbiqinin ilk təcrübəsidir.



Kitabın tərtibçiləri Şəlalə Nəqşani və Cavid Zeynallı, buraxılışa məsul Sərraf Balaxan, texniki redaktor Rita Müslümovadır.

***XQ***

Pərdəarxası gerçəklər

# Avropanın türklük qorxusu

## Bu səlib yürüşü futbolu da hədəfə aldı

**Məlum olduğu kimi, Almaniyada keçirilən AVRO–2024-ün final mərhələsində Türkiyə–Avstriya matçında rəqib qapısına 2-ci qolunu vuran türk hücumçu Merih Dəmiral "bozqurd" işarəsi göstərərək sevincini bölüşdüyü üçün UEFA tərəfindən cəzalandırılıb və diskvalifikasiya edilib. Avropanın ali futbol qurumu bunu onunla izah edib ki, guya futbolçu ümumi davranış prinsiplərinə zidd hərəkətə yol verib.**

UEFA-nın ədalətsiz qərarı geniş əks-səda, biz deyərdik ki, daha çox mənfi reaksiya doğurub. Çünki "bozqurd" işarəsində elə bir qəbahət yoxdur. Bu, nə terrorçuluğu ifadə edən hərəkətdir, nə də mahiyyətində hər hansı bir ekstremizm var. Sadəcə, UEFA-nın əsassız qərarı, ilk növbədə, "Köhnə qitə"nin türk varlığını, necə deyərlər, həzm edə bilmədiyini, Türkiyə futbolunun tərəqqisinə qısqanc yanaşmasının təzahürüdür.

Çox təəssüf ki, Avropada bəzi qurumlar hay-həşir salıb, bunu ayrı-seçkilik adlandırdılar. Burada erməni lobbiçiliyinin də izi görünür. Nəticədə Avropa Futbol Federasiyası türk yığmasının oyunçu Merih Dəmiralı haqsız yerə 2 oyundan uzaqlaşdırmaqla cəzalandırdı. Bu, əsassız cəza idi və Türkiyə qərəzli məsələyə yüksək tribunalarda rəsmi etirazını bildirir.



AMEA Folklor İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Füzuli Bayatla bu mövzu ətrafında söhbətimiz oldu. Tanınmış alim həm UEFA-nın yanlış qərarına münasibətini bildirdi, həm də qədim türklərin inanc sistemində bozqurd motivi barədə fikirlərini bizimlə bölüşdü. Həmin müsahibəni təqdim edirik:

**– Professor, məlum futbolətrafı qalmaqal cəmiyyətin müəyyən təbəqəsində gündəmi zəbt edən mövzulardandır. Hətta bununla bağlı Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan belə bir açıqlama verib: "Kimsə deyir ki, almanların formalarında qartal var? Kimsə durub deyir ki, "fransızların formasında xoruz var, niyə xoruzlanırsan?". Orada Merih bu görüntü ilə həyəcanını ifadə edib. Bunun üzərinə Xarici İşlər Nazirliyimiz öz rəsmilərinə zəng edib və bununla bağlı lazımi addımlar atılır". Bir türkoloq, folklorşünas, nəhayət, bir vətəndaş kimi, bu barədə fikrinizi bilmək istərdik.**

– Bəzi işarələr var ki, onlar təkcə futbolda deyil, ümumiyyətlə dini, irqi, sosial-iyerarxik ayrı-seçkilik yaradırsa, göstərilməsi qadağandır. Məsələn, Almaniyada xaç işarəsinin göstərilməsi, küçədə bir yerə cızılması, futbolda hansısa geyimin üzərinə vurulması yasaqdır. Amma "bozqurd" işarəsi (əldə barmaqların qatlanması ilə göstərilir) bu qadağalara aid deyil. Bu işarə aidiyyətlik deməkdir, yəni mən türkəm. Başqa sözlə, mifoloji olaraq qurda bağlılığın nümayişidir. Bu bir çox ölkələrdə belədir, insanlar hansısa heyvanı əcdad seçirlər. Elə xalqlar var ki, kenqurunu, atı, meymunu və s. əcdad seçirlər. Bu, xalqların yüzillər boyu yaratdığı inancdır. Türk milləti də bozqurdu özünə əcdad seçib. Burada kimsə aşağılanmır, fərqləndirilmir.

Bozqurd, qeyri-rəsmi olaraq, türk olmağı tərənnüm edir. Çünki irqi, dini və digər ayrı-seçkiliyi ehtiva etmir. Bu işarə hələ İslamdan öncə olub, dinlə də heç bir bağlılığı yoxdur.

UEFA-nın verdiyi qərar onun ayrı-ayrı ölkələrin üzvlərinin səsçoxluğu ilə qəbul edilib. Burada pantürklük əlaməti deyil, daha çox siyasi dairələrin diktəsi, qısqanclıq əlaməti var. İki oyundan uzaqlaşdırılmış futbolçu 2 qol vurmuşdu, yaxşı oynayırdı. Avropalılar müasir texnologiyanı yaxşı bilsələr də, nəyinki türklərin tarixini, mən deyərdim ki, heç öz tarixlərini yaxşı bilmirlər.

**– Füzuli müəllim, bildiyimizə görə, siz uzun müddət qardaş Türkiyədə çalışmısınız. Başqa sözlə, oradakı kökə bağlılıq, yüksək türkçülük əhval-ruhiyyəsinə bələdsiniz. Orada "bozqurd" işarəsinə yanaşma necədir?**

– Bildim, nə demək istəyirsiniz. Bir problem də futbolçunun "bozqurd" işarəsi göstərməsinin elə Türkiyədə birmənalı qarşılanmamasıdır. Məsələ burasındadır ki, qardaş ölkədə bu işarəni hər kəs göstərmir. Bunu Millətçi Hərəkatı Partiyasının (MHP) üzvləri bir növ özəlləşdiriblər. Siz Türkiyədə bu işarəni göstərsəniz, həmin partiyanın üzvü olduğunuzu zənn edəcəklər. Amma bir məsələ də var ki, Türkiyənin ən böyük lideri Atatürk də bu işarəni göstərib, lakin bu partiyanın üzvü deyildi. UEFA-nın bu hərəkətini mən də Türkiyəyə yönəlik qeyri-legitim imza kimi qiymətləndirirəm.



**– Elə bir neçə il əvvəl prezident Rəcəb Tayyib Ərdoğan AK Partiyanın Mersin şəhərində keçirilən konqresində salondan kənarda gözləyənləri əli ilə "bozqurd" işarəsi göstərərək salamlayıb. Bu da o deməkdir ki, sözügedən işarə hansısa partiyaya deyil, bütövlükdə xalqa aid əl simvoludur. Əslində, idman həm də siyasətdir. Böyük futbol ölkələrinin, böyük klubların oynadığı siyasət. Yəni böyük dövlətlərin oynadıqları siyasi oyunlar kimi. Amma idman məxsusi olaraq siyasətə qarışmamalıdır. Təəssüf ki, UEFA özünü bu təzyiqdən sığortalaya bilmir və bəzən alətə çevrilir. Deyə bilərik ki, bu qərarla qurum nizamnaməsini ciddi şəkildə pozub...**

– Elə buna görə də Türkiyənin xarici işlər, idman nazirlikləri, Türkiyə Futbol Federasiyası etirazlarını bəyan ediblər. Bəli, yersiz qərarda daha çox siyasi dairələrin diktəsi, qısqanclıq əlaməti var.

Mənə gəlincə, futbolsevər deyiləm. Amma, hər halda, Türkiyə millisinin uğurunu da öz uğurum sayıram. Görünür, Avropa hansısa müsəlman ölkə komandasının qitə yarışlarında irəli çıxmasını istəmir. Bir sözlə, komandaya haqsız cəza verilib.

**– Aktual mövzuda maraqlı açıqlamalara görə təşəkkür edirik.**

***Müsahibəni hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

# Yay turizmi gözəlliklərə körpü salıb

**Azərbaycan ilin bütün fəsillərində turizmin müxtəlif növləri üçün əlverişli şəraitə və müvafiq infrastruktura malikdir. Artıq bir aya yaxındır ki, ölkəmizdə yay turizmi mövsümünə start verilib. Demək olar ki, turizmin müxtəlif növləri üçün hər cür şəraitimiz var.**



Bu yay da ölkəmizə xarici turistlərin marağı böyükdür. Digər tərəfdən, yerli turistlər də istirahətlərini səmərəli şəkildə təşkil etmək məqsədilə ölkə daxilində yay turizminin imkanlarından faydalanırlar. Bu gün turistlər daha yaxşı dincəlmək üçün istirahətə hər baxımdan əlverişli olan məkanlara üz tuturlar. Məlumatlar göstərir ki, Azərbaycanda xarici və yerli turistlərin, xüsusən regionlardakı turizm istirahət mərkəzlərinə maraqları daha çoxdur. Bu da təbiətin qoynuna üstünlük verilməsi ilə əlaqədardır. Əlbəttə, dincəlmək üçün paytaxt Bakını seçənlər də yetərli qədərdir.

Araşdırmalara görə, Azərbaycanda bu mövsüm əvvəlkilərlə müqayisədə turist sayına görə daha dinamik görünür. Bunun bir səbəbi yaradılan gözəl şəraitdirsə, digər səbəbi də, heç şübhəsiz, ölkəmizdə ictimai-siyasi sabitliyin, əmin-amanlığın tam təmin olunmasıdır.

**Turizm üzrə ekspert Ceyhun Aşurov bildirdi ki, ötən ilin eyni dövrü ilə müqayisədə bu il yay mövsümündə Azərbaycana yollayış alıb gələn turistlərin sayında 30–35 faiz artım qeyd olunub.**

– Yay mövsümündə ölkəmizdən digər ölkələrə istirahət üçün gedənlərin sayında da artım müşahidə olunur. Hər iki istiqamətli bazar bərpa olunmaq dövrünü yaşayır. Bəzi ekspertlər də qeyd edirlər ki, hər hansı maneə olmazsa, Azərbaycan turizmi bütünlüklə pandemiyadan əvvəlki dövrünə qayıda bilər. Müşahidələr onu da göstərir ki, ümumi götürdükdə, regionlarda da aktivlik müşahidə olunur. Bu yöndə ənənəvi istiqamətlər var. Turistlər daha çox turizm infrastrukturunun inkişaf etdiyi regionlarımıza səfər edirlər. Buraya Quba, Qusar, Şamaxı, Şəki və Cənub istiqamətini qeyd edə bilərik.

Son dövrlərdə işğaldan azad olunan ərazilərə də turist axını artıb. Təkcə bayram günlərində 5 minə yaxın vətəndaşımız şəxsi avtomobilləri ilə Şuşa, Kəlbəcər, Laçın istiqamətlərinə səfərlər ediblər. Eyni zamanda, dördgünlük Qurban bayramı zamanı 20 minədək vətəndaşımız avtobuslarla qeyd olunan istiqamətlərə səfərə gedib. Bu da turizm üçün yeni istiqamət sayılan Qarabağ zonasına marağın artması ilə bağlıdır.

Ekspert ölkə üzrə turizm düşərgələrindəki qiymət artımı mövzusuna da münasibət bildirərək söylədi ki, qiymətlər keçən illə müqayisədə baha deyil. Onun sözlərinə görə, xarici turların qiymətində bahalaşma müşahidə edilir. Xüsusən, Türkiyə istiqamətindəki turizm istirahət mərkəzlərində bahalaşma var. Bu da ölkəmizdə daxili bazarın aktivliyinə müəyyən qədər təsir göstərir.

**Turizm üzrə digər ekspert Ruslan Quliyev isə qeyd etdi ki, builki yay turizm mövsümü gec başlasa da, ümumilikdə, turistlərin gəlişində fəallıq hiss olunur:**

– Bu yay Hindistan, Pakistan, İsrail və Rusiyadan daha çox turistin gəldiyi nəzərə çarpır. Yay mövsümündə ən çox turist axını iyul və avqust aylarında qeydə alınır. Qiymətlərə gəlincə, cüzi artımlar ola bilər, ancaq bu da təbii qarşılanmalıdır. Qiymət artımı ilkin rezervasiyalarda iştirak və bəzi hallarda tələbin təklifi üstələməsi halları nəticəsində baş verə bilər.

Ölkə vətəndaşlarının turist səfərlərində Türkiyə ilk yerdə qərarlaşır. Ancaq Azərbaycandan Monteneqroya gedənlərin sayında da artım var. Yay mövsümündə vətəndaşlarımız həm müalicə ilə həm də istirahətlə bağlı turlara üstünlük verirlər.

Ekspert bildirdi ki, ölkə turist axını dinamikasında üstünlüyü saxlamaq üçün turizm şirkətlərindən daha çox realizasiya həyata keçirilməlidir.

Onun sözlərinə görə, bəzi hallarda turistlər bölgələrə birbaşa müraciət edirlər. Bu da sövq edir ki, turizm şirkətləri daha çoxçeşidli proqramlar hazırlayaraq, bəlli bir endirimlər etməklə, turistləri qazana bilsinlər.

***Ceyhun ALIŞLI***

Olimpiya çempionlarımız

# Zəfər yolumuz idmançılarımızı qələbəyə səsləyir

## “Parisdə də bayrağımızı zirvədə görəcəyik”

**Azərbaycanın ilk Olimpiya çempionu, dünya şöhrətli atıcı, ikiqat olimpiya, altıqat dünya rekordçusu Zemfira Meftahetdinova idman karyerasında ən parlaq nailiyyətlərini məhz müstəqil Azərbaycanda qazanıb.**



Özünün də dediyi kimi, məhz Azərbaycan bayrağı altında Olimpin zirvəsinə yüksəlmək böyük şərəfdir. Paris Olimpiadası ərəfəsində Zemfira xanımla görüşüb, bütünlüklə idmana həsr etdiyi ömür yoluna işıq tutduq. Əslən tatar olan dünya şöhrətli idmançı 1963-cü ildə Bakıda sadə bir ailədə böyüyüb. Ata-anası Bakıda doğulsa da, ulu nənə-babaları Volqaboyu Sibirskdən “küləklər şəhəri” Bakıya gəliblər. Ailədə özündən 4 yaş böyük qardaşı kimi o da, uşaqlıqdan idmana həvəs göstərib. Qardaşı atletika, o isə idman gimnastikasının, daha sonra atıcılığın sirlərinə yiyələnib.

**– Zemfira xanım, idmanda ilk addımlarınızı necə xatırlayırsınız?**

– Uşaqlığım Yasamal rayonu mətbuat prospektində keçib, 225 nömrəli məktəbdə oxumuşam. Sonra 8-ci mikrorayona köçdüyümüz üçün 115 nömrəli orta məktəbdə təhsilimi davam etdirmişəm. O vaxt məktəbimizlə üzbəüz atıcılıq tiri yerləşirdi. Oradan hər gün eşidilən güllə səsləri məndə böyük maraq oyatmışdı. Bir gün məktəbdə dərsdən çıxanda rəfiqələrimlə qərara gəldik ki, gedib, özümüzü sınayaq. O zaman stend atıcılığının trap növündə məşqçi kimi çalışan Leyla Cəfərova bizi atıcılıq tiri ilə tanış etdi. Həmin gündən başlayaraq 4 rəfiqə atıcılıqla böyük həvəslə məşğul olmağa başladıq.

İlk vaxtlar rəfiqələrimə nisbətən, hədəfi dəqiq nişan almaqda çətinlik çəkirdim. Öz üzərimdə çox çalışırdım ki, geri qalmayım. Təxminən 1 il məşq etdikdən sonra yarış keçirildi və gözlənildiyi kimi, çox aşağı nəticə göstərdim. Yarışdan sonra Leyla Cəfərova məsləhət gördü ki, özümü dairəvi stenddə sınayım. Çox pis oldum, ağladım, rəfiqələrimlə birgə məşğul olmaq istədiyimi bildirdim. Yoxsa gedəcəyimi dedim.

**– Ailədə necə? Sizi dəstəkləyirdilərmi? Məşqlər dərslərinizə mane olmurdu ki?**

– O vaxt qardaşım da gələcək həyatını idmanla bağlamadı. Valideynlərim sağlamlığımız üçün idmanla məşğul olmağımızı çox istəyirdilər. Ona görə bizi ruhlandırır, davamlı məşqlərimiz üçün səy göstərirdilər. Atam isə mənim həm də, tikişlə məşğul olmağımı istəyirdi. Dərslərimi də yaxşı oxuyurdum. Bir gün məşqçim Leyla xanım evimizə gəldi. Valideynlərimlə danışdı. Dedi ki, özümü dairəvi stenddə sınasam, yaxşı olar. Mənə daha bir şans vermək lazımdır.

Valideynlərimin də məsləhəti ilə Hafiz Cəfərovun rəhbərliyi ilə stend atıcılığının skit növündə məşğul olmağa başladım. Həmin vaxt Hafiz Cəfərov həm də baş məşqçi vəzifəsində çalışırdı. Bir neçə aydan sonra dairəvi stend üzrə keçirilən ilk yarışda uğurla çıxış etdim. Bu qələbə özümə inamı xeyli artırdı. Hiss edirdim ki, hədəfi dəqiq nişan almaq getdikcə böyük arzuya çevrilir.

**– Ov tüfəngi tapançaya nisbətən xeyli ağırdır. Nə vaxtsa güllə atıcılığı ilə məşğul olmaq istəmisinizmi?**

– Stend atıcılığı məşqlərinə başlayanda 13 yaşlı çəlimsiz, arıq qızlar idik. Təsəvvür edin, 3,5 kiloqram çəkisi olan tüfənglə fasiləsiz məşqlər edirdik. Sifətimizdə, çiynimizdə göyərtilər getdikcə zədəyə çevrilirdi. Fiziki məşqlərlə orqanizmimizi möhkəmlətməyə, tez böyüməyə çalışırdıq ki, bu ağırlığın öhdəsindən gələk (gülümsəyir). Əlbəttə, tapança daha yüngüldür. Bəlkə də, yaxınlıqda güllə atıcılığı tiri olsaydı, onu seçərdik. Amma o zaman bunu düşünmürdük. Ağır olsa da, çox xoşumuza gəlirdi. Nəticələrim yaxşılaşdıqca, daha yüksək nailiyyətlər əldə etməyə çalışırdım.

**– İlk böyük uğurunuzu nə vaxt qazanmışınız?**

– 1983-cü ildə SSRİ birinciliyində 20 yaşlılar arasında gümüş medal qazandıqdan sonra beynəlxalq yarışlarda çıxış etməyə başladım. 1986-cı ildə isə Moskvada keçirilən Avropa kubokunda 2-ci yeri tutdum. Millinin lideri Svetlana Dyomina qalib oldu. Bu yarışdan sonra məni də SSRİ komandasına qəbul etdilər.

**– SSRİ komandasında dünya və Avropa çempionatında dəfələrlə mükafata sahib olsanız da, ən parlaq nailiyyətlərə müstəqil Azərbaycanda sahib olmuşunuz.**

– SSRİ yığmasının heyətində Avropa çempionatlarının komanda yarışlarında dəfələrlə qalib olmuşuq. İstər dünya, istərsə Avropa çempionatlarında 2-ci və 3-cü yerləri tutsam da, qızıl medal qazana bilməmişdim. Adət üzrə SSRİ yığmasının lideri Svetlana Dyomina 1-ci, mən isə ya 2-ci, ya da 3-cü yeri tuturdum.

Ölkəmiz öz müstəqilliyini qazandığı ilk illər Azərbaycanda bütün sahələrdə, eləcə də idmanda vəziyyət çox ağır idi. İdmançılarımızın beynəlxalq turnirlərdə medal qazanması bir tərəfə, mübarizə aparması belə çətin məsələ idi. Ulu öndər Heydər Əliyevin idmana diqqəti və qayğısı biz idmançılar üçün böyük motivasitya oldu. Çətin şəraitdə də olsa, böyük əzmkarlıqla mötəbər yarışlara hazırlaşmağa başladıq.



Karyeramda Avropa çempionatlarının fərdi yarışlarında ilk qızıl medalı 1993-cü ildə Çexiyanın Brno şəhərində keçirilən Avropa çempionatında qazandım. İlk dəfə idi ki, belə bir mötəbər yarışda öz bayrağımız altında çıxış edirdik. Həmin yarışda müstəqil Azərbaycanın bayrağı yüksəklərdə dalğalananda, himnimiz səsləndiriləndə elə hisslər keçirirdim ki, onu sözlə ifadə etmək mümkün deyil. Bu Vətən naminə qazanılan böyük qələbə idi. 1995-ci ildə dünya çempionatında qızıl medala sahib oldum. Həmin il yığmamızın digər üzvü Valeri Timoxin gümüş medal və Atlanta Olimpiadasına lisenziya qazandı. Mən dünya çempionu olsam da, növüm Olimpiya proqramında olmadığına görə bu mötəbər yarışlarda iştirak edə bilmədim.

Skit növü Olimpiya Oyunlarının proqramına salınanda çox sevindim. Bu növdə ən güclü idmançı SSRİ yığmasının lideri Svetlana Dyomina idi. Onu da deyim ki, biz Dyomina ilə rəfiqə olmuşuq. Onunla yaxınlığımız İtaliyada 1986-cı ildə keçirilən Avropa çempionatından başlayıb. Həmin yarışda bir balaca zəif atdığıma görə həyəcan keçirirdim. O, məni sakitləşdirərək, ürəkdirək verdi. Doğrudan da, yarışda yaxşı çıxış etdim. Getdikcə yaxınlığımız möhkəm dostluğa çevrildi. Ən yaxın rəfiqəm, daha sonra ən layiqli rəqibim oldu. 2000-ci ildə isə Sidney Yay Olimpiya Oyunlarının qalibi olanda Svetlana Dyomina 2-ci yeri tutdu.

2001-ci ildə 2-ci dəfə dünya çempionu tituluna sahib oldum. 2003-cü ildə isə 3-cü dəfə Avropa çempionu oldum.

**– Müstəqil Azərbaycanda Olimpiadada ilk qızıl medal qazanmağa nail olmuşunuz. Azərbaycanlı qadın üçün bu qədər yüksək zirvəyə qalxmaq çətin olmadı ki... Qızınız Regina da sizin yolunuzla gedir.**

– Dünya yaranışdan belədir. Qadının vəzifələri çox və ağırdır. Evdə hamının qulluğunda durmaq, ev işlərini görmək, biş-düş, üstəlik, uşaqların qayğısını çəkmək və böyütmək. İlk baxışdan cəmiyyətdə ayrı-seçkilik yoxdur. Amma diqqət etsək görərik ki, qadınlar evdə o qədər yüklənirlər ki, işdə vəzifələrinin öhdəsindən tam gələ bilmirlər. Təbii ki, mənə şərait yaradılmasa idi, bu qədər nailiyyət əldə edə bilməzdim. Yoldaşım hər zaman məni dəstəkləyib, kömək edib. Qızım Regina uşaqlıqdan idmana həvəs göstərib. Atıcılıqdan başqa gimnastika, atçılıqla da məşğul olub. Stend atıcılığı üzrə millinin üzvüdür. Oğlum Ruslan isə kompüter elmləri, texnoloji biliklərə maraq göstərir.

Düşünürəm ki, qadın daha güclü və ağıllıdır. Sadəcə, imkanlar məhduddur. Çox zaman deyirlər ki, tüfəngdən atəşaçma qadın işi deyil. Amma bu növdə qadınlar və kişilər arasında nəticələrdə fərq o qədər də, böyük deyil. 1992-ci ildə trap növündə olimpiadada qadınlar arasında ayrıca yarış olmadığına görə, zərif cinsin nümayəndələri də kişilərlə birgə mübarizə apardılar. Çinli qadın Çjan Şan 200-dən 200-ü vuraraq kişiləri üstələyib, dünyanın ən dəqiq snayperi oldu. Həmin vaxtdan qadınların kişilər arasında çıxış etmələrinə qadağa qoyuldu.

Düşünürəm ki, qadınlar da kişilər kimi, istənilən zirvəni fəth edə, hətta əks cinsin nümayəndələrini üstələyə bilərlər. Populist çıxışlar isə heç xoşuma gəlmir. Tez-tez “Qadın güclüdür, yaxud kişi” deyə müzakirə açırlar. Burada fərdlərdən söhbət gedir. Təəssüf ki, bərabər dediyimiz o imkanları, hələ də qızlar üçün yarada bilməmişik. Çünki cəmiyyət buna hazır deyil.

**– Milli Olimpiya Komitəsinin və Atıcılıq Federasiyasının vitse-prezidentisiniz. Atıcılığın, ümumilikdə idmanın, Olimpiya Hərəkatının inkişafı ilə bağlı nə deyə bilərsiniz?**

– Azərbaycan idmanı üçün il-ildən uğurlu gəlir. Tokio Olimpiadasından ötən illər ərzində böyük uğurlarımız olub. Güləş, cüdo, boks, gimnastika və digər Olimpiya növlərində güclü idmançılarımız yetişiblər. Ölkəmizdə atıcılığın inkişafı üçün də hər bir şərait yaradılıb. Həm güllə, həm stend atıcılığında inkişaf var. Paris Oyunlarında güllə atıcılığı üzrə Ruslan Lunyov ölkəmizi təmsil edəcək. Stend atıcılığı üzrə idmançılarımızdan 2-si idman ustası normasını yerinə yetirib. Bu il güllə atıcılığı komandamız beynəlxalq yarışlarda böyük uğurlar qazanıb.

Amma idmançılarımız Dünya, Avropa çempionatlarında finala yaxın olsalar da, medal qazana bilməyiblər. Güllə atıcılığında Nigar Nəsirova, stend atıcılığında isə Regina Meftahetdinova dünya kubokunda finala yüksəlsələr də, medal qazana bilmədilər. Yəni çox böyük şans var idi ki, olimpiadaya vəsiqə əldə etsinlər. Qarşıdakı illərdə daha yüksək uğurlar üçün zəmin yaranıb. Düşünürəm ki, növbəti 3-5 il ərzində gözlədiyimiz nəticələri qazana biləcəyik.

**– Artıq bir neçə gündən sonra Azərbaycan komandası Paris Olimpiadasına yola düşəcək. Gözləntiləriniz?**

– Olimpiya Oyunlarının statusu, reytinqi yüksəkdir. Azərbaycan yığmasının heyətində çox güclü idmançılar var. Onların hər biri medala iddialıdır. Artıq 48 idmançı “Paris-2024”ə vəsiqə qazanıb. Komandamızın Oyunlara yüksək səviyyədə hazırlığına dövlət tərəfindən xüsusi diqqət və qayğı var. Dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biri olan Azərbaycan həm də güclü idman ölkələrindən biri hesab olunur. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. İdmançılarımız da bu məsuliyyəti anlayırlar. Əminəm ki, Parisdə bayrağımızı zirvədə görəcəyik.

Vətən müharibəsində Zəfər qazanmış, ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş bir xalqın idmançıları qalibiyyət estafetini Paris Olimpiya Oyunlarında da davam etdirməlidirlər.

***Müsahibəni apardı:***
***LeylaQ URBANOVA***
***XQ***

Beynəlxalq həyat

# Fransa daha da “parçalandı”

## Heç bir siyasi qüvvə seçkidə üstünlük qazanmadı

**Fransada növbədənkənar parlament seçkilərinin ikinci turu keçirildi və onun əsas mübarizəsi Marin Le Penin “Milli Birlik” partiyası və solçu “Yeni Xalq Cəbhəsi” koalisiyası arasında oldu. Hamını təəccübləndirən məqam budur ki, birinci raundda qalib gələn ifrat sağçılar ikinci turda rəqiblərinə uduzdular. Marin Le Penin partiyası nəinki mandatların mütləq əksəriyyətini ala bilmədi, həm solçulara, həm də prezident blokuna məğlub oldu.**



Seçkilərin ikinci turunun ilkin nəticələri xəbəri Fransa tərəfindən sensasiya kimi qəbul edilir. Söhbət qazanılan faizlərdən deyil, ümidlərlə reallıq arasındakı uçurumdan gedir. Seçki kampaniyası zamanı Marin Le Pen o qədər paravozun önünə düşüb qaçaraq, “Milli Birlik” partiyasının mütləq çoxluq qazanacağını vurğulayırdı. Ancaq nəticə onun istədiyi kimi olmadı. Doğrudur, hazırki nəticə ifrat sağçıların indiyə qədər əldə etdiyi ən böyük seçki uğurudur. Məsələn, 2017–2022-ci illərdə parlamentdə cəmi altı “lepençi” deputat var idi, 2022-ci ildə 88 idi və indi partiya, ilkin məlumatlara görə, Milli Assambleyanın amfiteatrında 115-150 yerə iddia edə bilər. Bu, həm çox, həm də az çıxır. Mandatların sayına görə görünməmiş dərəcədə yüksəkdir, lakin ifrat millətçilərin özünü doğrultmayan ümidlərini nəzərə alsaq, çox azdır.

Birləşmiş solçular parlamentdə 175-205 yer proqnozu ilə qalib gəldilər. Prezident blokunun gücü 150-175 yerə çatdı. Deməli, ifrat sağçıların öz iradəsini parlamentə sırımaq imkanı olmayacaq, amma onların yeni rəqibləri olan “Yeni Xalq Cəbhəsi” də təkbaşına qərarlar qəbul edə bilməyəcək. İndi solçular qələbələrini qeyd edirlər. Politoloqlar deyirlər ki, sol qüvvələrin vahid iradəsi Milli Birlik partiyasını sükandan uzaqlaşdıra bildi. Düzdür, prezident koalisiyası da gözlənilən fiaskoya uğramadı, amma ciddi zərbə aldığını birmənalı şəkildə deyə bilərik.

Bu, solçu-sağçı üçün heç-heçənin yalnız başlanğıcdır. İndi sual ondadır ki, bu qüvvələr bundan sonra özlərini necə aparacaqlar? Hər iki partiya arasında böyük fərq var. “Milli Birlik” tərkibinə görə eynidir və eyni partiyanın üzvlərindən ibarətdir. Ancaq “Yeni Xalq Cəbhəsi” barədə bunu demək olmaz. Bu birlikdə ifrat solçulardan tutmuş “yaşıllaradək” fərqli ideoloji baxışlara malik qüvvələr var. İlk baxışdan bu, ifrat sağçıların daha güclü və birləşdiyi anlamına gələ bilər. Belə görünə bilər ki, müxtəlif siyasi qüvvələrin birləşdiyi “Yeni Xalq Cəbhəsi” səsvermə zamanı daha asan şəkildə müttəfiqlər və tərəfdarlar tapa biləcək. Ancaq yerli politoloqlar bildirirlər ki, solçuların koalisiyasında daha aydın və proqressiv proqramlara malik qüvvələr də var. Buna görə də, siyasi müşahidəçilər düşünürlər ki, belə müxtəlif baxışlar indiki solçu müttəfiqlər arasında şiddətli rəqabətə səbəb ola bilər. Bu baxımdan “Yeni Xalq Cəbhəsi”nin birləşdiyi kimi asanlıqla parçalana biləcəyi də proqnozlaşdırılır.

Qərb mətbuatı yazır ki, yaxın aylarda Fransanın bütün siyasi həyatı parlament seçkilərinin nəticələrinə uyğun olaraq yenidən qurulacaq. Bu dəfə isə heç nə seçicilərdən asılı olmayacaq, qaliblər və uduzanlar sanki sıfırdan vəzifə və ofis bazarlığına başlayacaqlar. Deputat qruplarının tərkibini müəyyənləşdirməli, sədr və onun müavinlərini seçməli, parlament komissiyalarını fraksiyalar arasında bölüşdürməli olan məclis daxilində gərgin müzakirələr aparılacaq. Eyni zamanda, hökumətin yenidən formalaşması, eləcə də nazir portfelləri ilə bağlı mübahisələr olacaq. Doğrudur, Fransanın baş naziri Qabriel Attalın istefa ərizəsini dövlət başçısı Emmanuel Makrona təqdim etdiyi bildirilir. Ancaq sonradan məlum oldu ki, Makron onun xahişini qəbul etmədi.

Xatırladaq ki, prezident Emmanuel Makron iyunun 9-da Milli Assambleyanın buraxılması ilə bağlı Fransanı şoka salan bəyanatında bu addımı ölkənin yerləşdiyi vəziyyətə aydınlıq gətirmək zərurəti, ehtirasları sakitləşdirmək və fransızları birləşdirmək istəyi ilə əsaslandırmışdı. Ancaq seçkilər vəziyyəti daha da qarışdırdı. Siyasi ehtiraslar daha da alovlandı və fransızların seçimi ölkənin necə iki düşərgəyə bölündüyünü göstərdi, hər ikisi də ifrata doğru yön aldı. Ən azından ona görə ki, parlamentdə sağla solun ortaq dil tapması ehtimalı azdır. Yəni ifrat sağçılar üçün vəd etdikləri “oyunu dəyişdirən” qanunları, məsələn, təcili anti-immiqrant tədbirlərilə bağlı qərarları qanunverici orqan vasitəsilə keçirmək çox çətin olacaq. Solçular da, öz növbəsində, belə çətinliklərlə üzləşəcəklər.

***SE LAY***
***XQ***

Təbiətin nəğməsi

# “Mən güllər gözəliyəm”

**Məni hər yerdə görə bilərsiz. Gözü gözəllik görmək, ruhunu rahatlamaq istəyənlər fidanlarımı bağçalarda, həyətlərdə xüsusi qayğı ilə becərirlər.**

Yazda, payızda incə budaqlarımda bir-birindən gözəl, bağçaların bəzəyinə, ellərin sevimlisinə çevrilən qönçələrim göz oxşayır. Qönçələrimi görənlər gözəlliyimdən və ətirimdən doymurlar. Ətirimi çəkənlər bihuş olurlar.

Harada olsam oranı daha da gözəlləşdirir, diqqətçəkən edirəm. Otaqlarda güldanlara qırmızı, sarı, bənövşəyi rəngli dəstəmi qoyurlar.

Gəlinlik paltarı geyən qızlar bəyin qoluna girib nikah evinə gedərkən, digər əliylə qönçəli buketimi tutar, bəylər isə yaxasına taxarlar. Gəlin maşınını da mənimlə bəzərlər. Ləçəklərimi anaların başına səpərlər, həsrətlilərin, sevənlərin yoluna...

Mən güllərin ən gözəliyəm. Əvvəllər ancaq qırmızı və ağ rənglərdə olmuşam. Sonra yaşıl, sarı, narıncı, hətta göy və qara rənglərim də yaranıb.

Məndən gül süyü, gül yağı, gül sirkəsi, gül mürəbbəsi ... hazırlanır.

Adım qızların adına yaraşıqdır: Gülyanaq, Gülçöhrə, Gülçatay, Gülnişan, Güldəstə, Gülay, Gülnar, Gülcahan, Gülbuta, Güləndam, Gülgün, yaxud Aygül, Təzəgül, Tərgül...



Mən sevginin ifadəsiyəm. Biri sevdalısına məhəbbətini anlatmaqda çətinlik çəkəndə məni özü ilə aparır....

Otağınızdan, həyətinizdən məni əskik etməyin.

Qoy, ömrünüz gül ətirli olsun!

Yəqin, məni tanıdınız! Mən ətirli və gözəlliyini tikanları ilə qoruyan Qızılgüləm!

***Səməd MƏLİKZADƏ***


## “Bakışəhərtikintimexanikləşdirmə” ASC səhmdarlarının nəzərinə!

23 avqust 2024-cü il saat 10.00-da Bakı şəhəri, Nizami rayonu, Abdulla Mirzəyev küçəsi 18 nömrəli ünvanda “Bakışəhərtikintimexanikləşdirmə” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. 2023-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.
2. Cəmiyyətinin nizamnaməsinə əlavələrin və dəyişikliklərin edilməsi.
3. Müşahidə şurasının, icra orqanının və təftiş müfəttişinin seçilməsi.
4. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan-17.00-dək +994503169998 nömrəli telefonla əlaqə saxlaya bilərlər.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 141 (30545) 9 iyul 2024-cü il, çərşənbə axşamı

# Türk əzmkarlığı hollandların “çevriliş”inə mane ola bilmədi

**Ötən şənbə İngiltərə–İsveçrə və Hollandiya–Türkiyə matçları ilə Avropa çempionatının ¼ final matçlarına yekun vuruldu. Amma futbol ictimaiyyəti bu iki cütlüyün oyunu haqqında müzakirələri bu gün də davam etdirməkdədir. Əlbəttə, İspaniya–Almaniya matçının bütün Avro-2024-ün hazırki turunda kəskin fərqlənəcəyi əvvəlcədən bəlli idi. Həm gərginlik səviyyəsi baxımından, həm də Avro-2024-ün ən parlaq iki komandasının meydanda göstərdikləri performans baxımından. Amma  həqiqi futbol azarkeşləri Portuqaliya–Fransa qarşılaşmasında Kriştiano Ronaldo və Mbappenin möhtəşəm oyun sərgiləyəcəklərinə ümid etsələr də, arzu olunan oyunu görmədilər.  Elə İngiltərənin də İsveçrə ilə oyunda turnirdə qalmaq üçün dərhal tam gücü ilə işə düşəcəyini deyirdilər. Bu da proqnozları doğruldan oyun olmadı. Amma Hollandiya və Türkiyə matçının neytral azarkeşləri belə məyus etməyəcəyinə şübhə yox idi. Çünki bu rəqiblərin Dünya Çempionatı-2022-nin seçmə mərhələsindəki görüşləri  (6:1, 2:4) iyulun 6-da keçirilən matç üçün yaxşı anons olmuşdu. İndi isə turun son matçlarının şərhinə keçək.**



Sautgeyti İngiltərə millisində 100-cü matçında taktiki inqilabı xilas etdi. Dünya futbolunun ən çox tənqid edilən adamı uzun müddətdən sonra İsveçrəyə qarşı oyunda ilk dəfə üç mərkəz müdafiəçisi sisteminə keçdi. Diskvalifikasiya olunmuş Qexini ilk üçlükdə Konsa əvəz etdi. İrəlicədən bunu görmək çətin deyildi, lakin cinahlarda bir az intriqa var idi. Nəticədə sağ ayağı işlək olanTrippier sol yan xəttdə qaldı, sağ tərəf isə tamamilə Sakaya verildi.

Əslində, ingilislər İsveçrənin taktikasını olduğu kimi təkrarlamışdılar. İtaliya ilə oyun Yakını o qədər qane etmişdi ki, hətta diskvalifikasiyasını başa vurmuş Vidmeri də heyətə qaytarmadı və Rayderi sağ cinaha qoydu.

İsveçrənin planı son dərəcə sadə idi – topu ingilislərə vermək və onları meydanın  özlərinə aid olan yarıya çəkmək, bununla da rəqibi aramsız mövqe hücumuna cəlb etmək. Bu mənasız ötürmələrə qarşı durmaq o qədər də çətin deyildi, ancaq topu əldə keçirib dərhal əks-hücum keçmək mümkün idi. İlk dəqiqələrdə isveçrəlilər bunu yaxşı bacardılar. Amma qol imkanları yox idi. Qola yaxın vəziyyətlər isə yarada bilirdilər. İngiltərə millisi ilə qarşılaşmalarda isə belə məqamları dəyərləndirməyi bacarmalısan.

Bu oyundan hansısa atəşfəşanlıq gözləyən ən sadəlövh optimistlər belə, 30-cu dəqiqədə təslim oldular. Bu, İngiltərənin vurduğu künc zərbəsindən sonra oldu və nəticədə top... qapıçı Pikfordun üstünə getdi. Bundan sonra oyun tamamilə dayandı: rəqiblər meydanda bir-birinə boşluq yaratmağa imkan vermədilər və bütün mövqe hücumları cəhdləri yalnız mənasız zərbələrlə nəticələndi. İngiltərədə fərqlənən yeganə oyunçu Saka idi. O, cinahda dəfələrlə Ebişeri çevikliyi ilə dolaşdırmağı və keçməyi bacarırdı, lakin İsveçrənin sığortalamaları uğurla işlədi. Ebişerin diqqətini müdafiəyə yönəltmək məcburiyyətində qalması səbəbindən İsveçrə hücumda çox zəif görünürdü. İlk hissədə komandalar birləşərək, qolun üçdə birinə ancaq yaxın oldular.  Hədəfə heç bir zərbə yox idi və fasiləyə qədər tabloda hesab dəyişmədi. Bununla belə, ingilislər özlərindən razı qala bilərdilər: tribunalar onları soyunub-geyinmə otağına fitlə yola salmadılar!

Bu matçda hədəfə ilk zərbə 51-ci dəqiqədə endirildi. Embolo Konsanın arxasından topu Pikfordun əlinə yuvarladı. 60-cı dəqiqəyə yaxınlaşanda tamaşaçı zarafatları səsləndi: “Matçın ortasına çatdıq”. Çünki əlavə yarım saat qaçılmaz idi. Bu vaxt İsveçrə daha yaxşı görünürdü: uzun müddət oyun meydanın İngiltərəyə aid hissəsində keçdi. Bu matçın standartlarına görə, Yakının komandasının hücumları kifayət qədər kəskin idi. Hər dəqiqə vəziyyət getdikcə Soutgeytin müdaxiləsini tələb edirdi,



çünki oyun ingilis ssenarisinə uyğun getmirdi. Saka tamamilə yoxa çıxmışdı,  Keyni isə yalnız öz qapısı qarşısında tapmaq mümkün oldu, çünki o, müdafiəçilərə kömək etmək məcburiyyətində idi.

Elə bu səbəblərdən İsveçrənin sona 15 dəqiqə qalmış vurduğu qol tamamilə məntiqli görünürdü. Hücumu, gizli ötürmə ilə Ndoyeni cərimə meydançasında tapan mərkəz müdafiəçi Çer başladı. Oradan rəqib qapısı qarşısına uzaq hava ötürməsi gəldi və Embolo onu qola çevirdi. Sautgeyt dərhal üçlü əvəzetmə ilə buna reaksiya verdi, lakin əvəzedicilərin təsirinə ehtiyac olmadı, çünki  Saka artıq ayılmışdı. Onun əsas göstəricisinə çevrilmiş topla  manevri işə yaradı – cinahdan sıyrılaraq sol ayağı ilə uzaq küncə zərbə endirdi. Slovaklarla oyunda olduğu kimi, ingilislər hədəfə ilk zərbələri ilə qol vurdular. Bu beş dəqiqəlik partlayışdan sonra ingilislər sanki oyandılar. Lakin bu, oyunu qaçılmaz əlavə 30 dəqiqədən xilas edə bilmədi. Əlavə vaxtda üç məqam diqqət çəkdi – Raysın uzaq məsafədən həfə zərbəsi, Keynin Toni ilə əvəzləməsi və Şaqirinin küncdən qapı tirinə vurduğu qola yaxın zərbə. Penaltilər seriyası qaçılmaz oldu.



İngiltərə tarixən penaltilər seriyasında heç vaxt yaxşı təsir bağışlamayıb, bunu hamı bilir. Amma Sautgeyt və Pikfordun dövründə müsbət tendensiya var: Rusiyada keçirilən dünya çempionatında kolumbiyalılar, bir ildən sonra isə Millətlər Liqasında isveçrəlilər üzərində qələbəyə penaltilər seriyasında nail olmuşdular. Amma bundan əvvəlki avronun finalında İtaliyaya bu seriyada məğlub olmuşdular. Bu dəfə Pikford komandasını xilas etdi – Akanjinin zərbəsini aldı və bu, yarımfinala ayaq qoymağa kifayət etdi.

Azarkeşlər Saugeyti  iblisləşdirməyə və komandasının oyununu tənqid etməyə davam edə bilərlər. Ancaq İngiltərə millisi onun sayəsində Avropa çempionatının  finalına doğru əzmlə irəliləməkdə davam edir. Buna isə cəmi bir addım qalır.

## “Akınçı”ların qələbə əzmli məğlubiyyəti

İngiltərədən fərqli olaaq Türkiyə finala doğru yolunu davam etdirməyi bacarmadı. Onun Avropa çempionluğu yolundakı hekayəsi Hollandiya ilə matçda qırıldı. Bu,  necə baş verdi?

Hollandiya və Türkiyə bu matça böyük ümidlər bəsləyirdi. Çünki hər iki komanda son 16 ildə ilk dəfə idi Avropa çempionatının 1/4 finalına yüksəlmişdi. Ona görə də Ronald Kuman futbolçularını topu saxlamağa və ilkin mərhələdə daha diqqətli davranmağa çağırırdı. Düzdür, narıncılar artıq ilk dəqiqədə önə keçə bilərdi, lakin Memfis Depay münasib mövqedən qapı tirindən çox yuxarı zərbə endirdi.

Türkiyə millisi 1/4 finala qədər avstriyalılarla oyunda dublun müəllifi Merih Dəmiral da daxil olmaqla 3 futbolçusunu diskvalifikasiyaya görə itirmişdi. Elə görünürdü ki, UEFA Vinçenso Montellanı müdafiənin mərkəzinə kimi qoymaqla bağlı ağrılı sualdan xilas edib. Digər tərəfdən, yaxşı gündə üç belə futbolçuya bərabər olan Hakan Çalhanoğlu qadağadan sonra sıraya qayıtmışdı. İtaliyalı baş məşqçi Vinçenso Montella taktiki sxemi dəyişmədi – türklər yenə 5–4–1 düzülüşü ilə oynadı. Amma Arda Gülər “yalançı doqquzluq” rolunda yox, sağ cinah yarımmüdafiəçisi kimi  meydana çıxdı. Çevik ayaqlı Barış Yılmaz öndə idi. Bir neçə dəqiqədən sonra onlar yerlərini dəyişdilər. Gülər, deyəsən, müdafiədəki rolunu tam başa düşmürdü, ən azından, Montella görüş əsnasında tərcüməçi vasitəsilə yeniyetmə ulduza nəyisə izah etməyə məcbur oldu. Amma sonra Gülər yenidən sağ tərəfə keçdi və oyun zamanı azad bir sənətçi kimi bəzən müdafiəçilərinin köməyinə belə getdi.

Artıq oyunun belə sürətli başlanğıcı bu 1/4 finalın İngiltərə–İsveçrə oyunundan daha baxımlı və maraqlı olacağını vəd edirdi. Hollandiya topa və ərazi üstünlüyünə sahib idi. Lakin onlar türk “akınçı”larının sıx müdafiəsini yarmağa açar tapa bilmirdilər. 35-ci dəqiqəyə kimi rəqiblər hədəfə bir dəfə də olsun zərbə endirmədilər.



Yavaş-yavaş türklər öz oyunlarını tapmağa başladılar. Rəqibi məharətlə boşluqlardan məhrum etdilər, bu da narıncıların kombinasiyalarını uğurlu inkişaf etdirməyə mane oldu. Eyni zamanda, Vinçenso Montellanın yetirmələri Avstriya ilə 1/8 final matçında ustalıqla istifadə etdikləri standart vəziyyətlərlə Hollandiyanı hədələyərək, nəhayət künc zərbəsindən sonra hesabı açıdılar. Rəqibin qapısı önündən qayıdan topu ələ keçirən Arda Gülər hava ötürməsi ilə onu uzaq dirəyə tərəf  göndərdi, Səməd Akaydın başı ilə tora qovuşdurdu. Millidə ilk qolunu vuran Akaydın, deyəsən, müdafiəçi-bombardmançı  Dəmiraldan estafeti almışdı. Berlindəki stadion “Türkiyə!” “Türkiyə!”  “Türkiyə!” sədaları altında lərzəyə gəldi.

Belə şəraitdə pley-offda oyunda geri dönüş etmək olduqca çətindir. Bunu yaxşı bilən Kuman oturduğu məşqçi skamyasından meydandakı oyunçularına qəzəblə baxırdı. Onun oyunçuları topu sağa-sola qovsalar da, rəqibi meydanda çaşqın qoymaqda aciz idilər. Oyunun sürəti türklərə sərf edirdi. Fasiləyə qədər hollandlar qapıya cəmi dörd zərbə endirdilər,  hədəfə vurulan yeganə zərbə isə Akaydının qolu oldu. Hətta rəqibin cərimə meydançasında topa toxunma statistikasına görə belə, Hollandiya Türkiyədən üstün deyildi – 9:9.

Montella matç ərəfəsində gənc futbolçularının emosiyalarını cilovlamalı olduğunu vurğulamışdı və birinci hissənin sonuna qədər türklər əsəbi hollandlardan qat-qat səfərbər görünürdülər. Fasilə Kumana  komandasını silkələmək üçün yaxşı fürsət idi.  Baş məşqçi öz nəhəngini ehtiyat oyunçular skamyasından qaldırdı.  Bir vaxtlar Türkiyə çempionatında altı ay icarə əsasında çıxış edən, boyu, az qala, iki metrə çatan Vaut Verqhorst oyuna girər-girməz Türkiyənin müdafiəsində ciddi gərginlik yaratdı.Onun meydanda görünməyi artıq hollandların ikinci yarıda kəskin hücum futbolu oynayacağına birbaşa işarə idi.

Buna baxmayaraq,  daha bir məqamda türklər üstünlüyü artıra bilərdilər. Əvvəlcə Arda Gülərin vurduğu güclü cərimə zərbəsi dirəyə dəydi, daha sonra Bart Verbruggen Kənan Yıldızın zərbəsini dəf etdikdən sonra Verqhorst möcüzəvi şəkildə Kaan Ayhanın topu qapıya itələməsinin qarşısını aldı. Türklər, əsasən, Yılmazın hesabına əks hücumla keçirdilər. "Qalatasaray"ın forvardı o qədər tez-tez hücuma şığıyırdı ki, sanki o, sadəcə ”enerjidayzer” idi! Barış Virgil van Deykə cəhənnəm əzab verdi və sonda sarı vərəqə ilə “Liverpul”un ulduzunu ehtiyat oyunçular skameyasına oturtdu. Bununla belə, Kumanın “sistematik təzyiq” adlandıra biləcəyi vastə öz bəhrəsini verdi. Hollandiya da künc zərbəsi nəticəsində geri dönüş etdi. Depay sağ cinahdan yürüş edərək ötürmə etdi və 11 metrlik cərimə nöqtəsi yaxınlığında diqqətdən yayınan Stefan de Vriy topu başla Mertin qapısına vurdu – 1:1.

Narıncılar göstərdilər ki, onlar da standartları məharətlə yerinə yetirməyi bacarırlar. Altı dəqiqə sonra, Denzel Dumfrisin vurduğu zərbədən sonra Mert Müldur Kodi Gakponun təzyiqi altında topu öz qapısına vurdu. Bu Avro-2024-də artıq 10-cu avtoqol oldu. Ötən çempionatdakı rekordu təkrarlamaq üçün 1 qol çatmır.

Oyunun sonluğuna görə türklər, həqiqətən, böyük hörmətə layiq oyun nümayiş etdirdilər. Altı dəqiqə ərzində hesabda  1:2 geri düşəndən sonra, ümidsiz olmayın və adına çox layiqli olan Hollandiya müdafiəsinə qarşı o qədər çox şans yaratdılar ki, az qala, əlavə vaxta keçid edəcəkdilər. Meydana çıxan ehtiyat oyunçulardan Miki van de Ven son anda Zeki Çelikin zərbəsini dəf etdi, əsas vaxtda isə Verbrugger Semih Kılıçsoyun “ölümcül” zərbəsini dəf etdi. Bəzi məqamlarda oyunu xilas edən qapıçı Verbruggen, bəzilərində müdafiəçilər oldu, amma bəxt də az rol oynamadı. Qaliblərdən hansı bunsuz keçinməyi bacarır ki?

Beləliklə, türklər öz qapılarına həddən çox sıxıldıqları üçün cəzalandırıldılar. “Akınçı”lar özlərini müdafiə edirdilər.  Hollandlar rəqibə bu zəifliyi bağışlamadılar və ilk qolu buraxdıqdan sonra özlərinə gəlməmiş türklərin qapısına ikinci qolu vurub son nöqtəni qoydular. İndi narıncıların növbəti dayanacağı çərşənbə günü Dortmundda İngiltərə ilə yarımfinal oyunu olacaq.

*Səhifəni hazırladı:*
***İlqar RÜSTƏMOV***
***XQ***

## “Merihə cəza Türkiyəyə cəzadır”



**Hollandiya–Türkiyə matçını Berlində birbaşa tribunadan izləyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan  millinin məğlub olmasına baxmayaraq, oyundan sonra soyunub-geyinmə otağına gedib və futbolçulara əzmkar oyunlarına görə təşəkkür edib. Prezident UEFA-nın Merih Dəmiralın diskvalifikasiyasına sərt tənqidi münasibətini də gizlətməyərək deyib:**

– Qərbin mentalitet nöqteyi-nəzərindən bizə yanaşması dəyişməyib, hissləri hələ də eynidir. Dəmiralın diskvalifikasiyası ilkin olaraq razılaşdırılıb. Bu cəza Merih üçün deyil, əslində, bu, bir millət olaraq Türkiyə üçün bir cəzadır. Düzünü desəm, Dəmiralın diskvalifikasiyası Avropa çempionatına ciddi kölgə saldı.

## İspaniya favoritdir



**İndi futbol mütəxəssisləri İspaniya millisini  turnirin əsas favoriti hesab edirlər. Belə görünür ki, hətta Fransanın son əzmkar  oyunu belə onlara əngəl olmayacaq: ispanlar Qrizmannı  dayandırmağın, topu Mbappeyə verməməyin və  Kanteyə təzyiq göstərməyin yolunu tapacaqlar. Əsas çətinlik meydandan qovulan Karvaxalın yoxluğu olacaq, De La Fuente, əlbəttə ki, bunun öhdəsindən gəlməyin çarəsini tapacaq.**

## Dani Olmo ¼ finalın ən yaxşısıdır



**Dörddəbir finalın ən yaxşı oyunçusunu seçmək çox vaxt apara bilər, lakin bu səviyyəli matçda “qol plus ötürmə” edən yalnız Olmodur. Yeri gəlmişkən, o, turnirin əvvəlində sadəcə ehtiyat skameyadan oyuna girirdisə, son oyunda zədələnən Pedrini əvəz edib qəhrəmana çevrildi.**

Almaniya ilə oyunda Olmo lazım olan yerdə olmaqla ilk qolu vurmağa imkan tapdı. Əlavə vaxtda isə əla ötürməsi vurulan qələbə qolu isə çoxlarının gözlərini qamaşdırdı.

**Hava**

## Aranda yağmursuz və duman, dağlarda yağış və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 9-da Bakıda və  Abşeron yarımadasında hava  əsasən yağmursuz keçəcək. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 21-26°, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi 757 mm civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 40-45 faiz  olacaq.**

Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli  yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var.  Şərq küləyi əsəcək,  gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 33-38°, dağlarda gecə 11-16°, gündüz 20-25° isti olacaq.

***Q. QASIMOV***
***XQ***

✓ ***Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının “N” saylı hərbi hissəsi tərəfindən Əli Gülmamedoğlu Anarın adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN**

Azərbaycan Turizm və Menecment Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Təşkilatı ali məktəbin xidmət şöbəsinin müdiri Hakim Təhməzova atası

**CABBAR TƏHMƏZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75  Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02  E-mail: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64  info@xalqqazeti.az**
**+994(51) 280-16-44**

**“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 2944 |
| SİFARİŞ | 1517 |
| QİYMƏTİ | 60 qəpik |

**Növbətçi redaktor**
**Əli NƏCƏFXANLI**
**Çapa imzalanmışdır 00:00**